QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 043 (5763) **5 mart** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

## Azərbaycan paytaxtında "Bakı 2019: Ulduzlar Finalı" qarşılaşması keçirilib

*Prezident İlham Əliyev qarşılaşmaya baxıb*

Səh 2



"Səudiyyə Ərəbistanı Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlıdır"



3

Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirilib



4

Nərgiz Paşayeva Rusiya Təhsil Akademiyasının akademiki seçilib



6

Siyavuş Novruzov: "Prezidentin bu addımı bankların sağlamlaşdırılmasına təkan verdi"



5

Zeynal Nağdəliyev: Prezident İlham Əliyevin tapşırığı ilə keçirilən Novruz yarmarkalarında elə məhsullar var ki, qiyməti iki dəfədən çox aşağıdır



4

Hikmət Hacıyev: "Sumqayıt hadisələrini təşkil edən etnik erməni Qriqoryanda bir çox sualların cavabı var"



4

8

"Əli Kərimli bizim nəsli gözdən salır"



6

Naxçıvan Muxtar Respublikası: inkişafı ilə bədxahları narahat edən möcüzə



9

Əli Kərimli və Mehman Əliyev Əlikram Hümbətovun "bəyanat"ını tirajlayırlar



# Azərbaycan paytaxtında “Bakı 2019: Ulduzlar Finalı” qarşılaşması keçirilib

## *Prezident İlham Əliyev qarşılaşmaya baxıb*

***Bakının UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final matçına ev sahibliyi etməsi ilə əlaqədar ölkəmizdə təşkil olunan silsilə tədbirlər çərçivəsində martın 3-də paytaxtın mərkəzində, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qarşısında “Bakı 2019: Ulduzlar Finalı” adlı qarşılaşma keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və qızı Leyla Əliyeva qarşılaşmaya baxıblar.***











“Bakı 2019: Ulduzlar Finalı”nda “Qərb Ulduzları” və “Şərq Ulduzları” komandaları qarşılaşıblar.

Oyunda məşhur futbolçular Yeju Dudek, Maykl Essien, Anderson Luis de Souza (Deku), Hamit Altıntop, Nihat Kahveci, Andrey Arşavin, Revaz Arveladze, eləcə də yerli veteran futbolçulardan Nazim Süleymanov və UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyununun səfiri Vəli Qasımov iştirak ediblər. Bundan başqa, Regionlar Liqasından Şöhrət Rəhimov, azarkeşlər arasında keçirilmiş müsabiqə əsasında seçilən Zaman Zahirzadə, Məhəmməd Tanrıverdiyev və Avropa Liqasının finalına həsr olunmuş “İntellektual Kubok”un qalibi olan İTV komandasının kapitanı Tural Dadaşov da meydana çıxıblar.

Əvvəlcə Prezident İlham Əliyev oyunda iştirak edən futbolçularla görüşüb. UEFA Avropa Liqasının kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim edilib. Sonra xatirə şəkli çəkdirilib. Daha sonra oyun başlayıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüş “Qərb Ulduzları” komandasının 11:10 hesablı qələbəsi ilə başa çatıb. Sonra Prezident İlham Əliyev oyunu izləyən gənc azarkeşlərlə görüşüb, xatirə şəkilləri çəkdirib.

# "Səudiyyə Ərəbistanı Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlıdır"

*Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun sədri, Səudiyyə Ərəbistanı-Azərbaycan Hökumətlərarası birgə Komissiyasının həmsədri İbrahim bin Əbdülrəhman əl-Ömərin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, İbrahim bin Əbdülrəhman əl-Ömər İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman Əl Saudun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfərindən məmnunluq hissi keçirdiyini qeyd edərək, Azərbaycanda gördükləri inkişaf proseslərinin, mədəniyyət və arxitektura nümunələrinin, xüsusilə Heydər Əliyev Mərkəzinin gözəlliyinin nümayəndə heyəti üzvlərində dərin təəssürat yaratdığını vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanda gedən böyük quruculuq işlərinin, ən müasir infrastrukturun yaradılmasının iqtisadiyyatın bütün sahələrinə, o cümlədən turizmin inkişafına böyük təkan verdiyini vurğuladı.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq əlaqələrinin genişləndiyi, ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi, İbrahim bin Əbdülrəhman əl-Ömərin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu, hökumətlərarası komissiyanın əməkdaşlığın inkişafı işinə töhfə verdiyi qeyd edildi.

Söhbət zamanı, həmçinin bildirildi ki, Səudiyyə Ərəbistanı Azərbaycanla əməkdaşlığı genişləndirməkdə və ölkə iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymaqda maraqlıdır. Məmnunluq ifadə olundu ki, bir il ərzində Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayı dəfələrlə artıb.

Görüşdə ölkələrimiz arasında yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, energetika, investisiya, bərpa olunan enerji mənbələrinin yaradılması, turizm və turizm infrastrukturu, sənaye, kənd təsərrüfatı, neft-qaz, alternativ enerji, nəqliyyat və digər istiqamətlərdə əlaqələrimizin inkişaf perspektivləri müzakirə edildi, ticarət dövriyyəsinin artırılmasının və bunun üçün logistik və nəqliyyat imkanlarının araşdırılmasının vacibliyi qeyd olundu.

Dövlətimizin başçısı İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman Əl Saudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və vəliəhdə çatdırmağı xahiş etdi.

# "Multikulturalizm və müxtəlif etnik və dini icmaların Azərbaycanda dinc yanaşı yaşamalarının təmin edilməsi dövlət siyasətidir"

*Prezident İlham Əliyev ABŞ Etnik Anlaşma Fondunun prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Mark Şnayer dinlər və mədəniyyətlərarası dialoqun təşviqi və müxtəlif dini və etnik icmaların sülh şəraitində birgə yaşaması baxımından Azərbaycanın nümunəvi dövlət olduğunu və dünyada bu işə öz töhfəsini verdiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, multikulturalizm və müxtəlif etnik və dini icmaların Azərbaycanda dinc yanaşı yaşamalarının təmin edilməsi dövlət siyasətidir və eyni zamanda, xalqımızın əsrlər boyu yaşatdığı həyat tərzidir.

Söhbət zamanı dinlər, mədəniyyətlər və sivilizasiyalararası dialoqun möhkəmlənməsi və dünyada təşviq edilməsi işində Azərbaycanda böyük önəm daşıyan beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olundu və ABŞ Etnik Anlaşma Fondunun bu işə töhfə verdiyi vurğulandı.

# Prezident İlham Əliyev Venesuelanın, Ruandanın və Tailandın Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Venesuela Bolivar Respublikasının, Ruanda Respublikasının və Tailand Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Venesuela Bolivar Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristofer Alberto Martinez Berroteran, Ruanda Respublikasının səfiri Vilyams Nkurunziza və Tailand Krallığının səfiri Phantipha İamsudha Ekarohit etimadnamələrini Prezident İlham Əliyevə təqdim etdilər.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
5 mart 2019-cu il

# Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirilib





***Martın 2-də Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirilib. Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov 2019-cu ilin ölkəmiz üçün əhəmiyyətli il olacağını bildirib.***



Başa vurduğumuz 2018-ci ilin ölkəmiz üçün uğurlu olduğunu deyən Əli Əhmədov qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında və Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramının (2014-2018-ci illər) icrasının yekunalrına həsr olunmuş konfransda ötən ilin nəticələrinə qiymət verb. Dövlətimizin başçısı ötən il iqtisadiyyatdakı inkişafı, eləcə də, digər sahələrdəki uğurları qeyd edib və islahatların daha da dərinləşməsi ilə əlaqədar proqramları bəyan edib.

"Artıq bir neçə ildir ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə islahatlar həyata keçirilməkdədir. Bu islahatlar əsas etibarilə iqtisadi sferanı əhatə edir. Çünki ölkənin inkişafı, insanların həyatının təmin edilməsi iqtisadiyyatın inkişafı ilə bağlıdır. Məmnuniyyətlə deməkolar ki, iqtisadi sahədə həyata keçirilən islahatlar öz bəhrələrini verməyə başlayıb. Bunun əsasında yaradılan bazaya uyğun olaraq islahatlar artıq sosial sferada da genişləndirilir. 2019-cu ilin başlanğıcından etibarən Azərbaycan Prezidenti sosial sfera ilə bağlı əhəmiyyətli sərəncamlar imzalayıb. Bu sərəncamlar əsasında insanların sosial həyatının yaxşılaşdırılması ilə əlaqədar çox ciddi tədbirlər görülüb. Minimum əməkhaqqının 180 manata çatdırılması çox ciddi addımdır. Bu artım 600 min insanın əməkhaqqına təsir edəcək. Eləcə də, minimum pensiya artırılması, müxtəlif müavinətlərin, tələbələrin təqaüdünün, məcburi köçkünlər üçün aylıq müavinətlərin artırılması, şəhid ailələrinə qayğı və s. addımlar çox vacib sosial proqramlardır. Bütün bunların hamısı bir tərəfdən Azərbaycan dövlətinin sosialyönümlü fəaliyyətinin mahiyyətini ifadə edir, dövlətin siyasətinin mərkəzində vətəndaş amilinin dayandığını göstərir. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması, onlara diqqət və qayğının artırılması Azərbaycan Prezidentinin siyasətinin əsas qayəsini təşkil edir. Təbii ki, bütün bu işlərin 2019-cu ildən etibarən geniş şəkildə reallaşması, geniş sosial proqramların həyata keçirilməsinə başlanması bir tərəfdən Azərbaycan hökumətinin sosialyönümlü fəaliyyətini əks etdirirsə, digər tərəfdən Prezidentin iqtisadi islahatlarının öz bəhrəsini verdiyini sübuta yetirir. Əgər bu islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı daha da güclənməsəydi, bu sosial layihələri reallaşdırmaq imkanı olmazdı. Amma əldə olunan nəticələr ondan xəbər verir ki, Azərbaycan dövləti öz üzərinə götürdüyü sosial öhdəlikləri layiqincə yerinə yetirib. Digər tərəfdən, islahatlar artıq öz bəhrəsini verir. Və bu hökumətə imkan yaradır ki, sosial məsələlərin həll edilməsi üçün daha böyük vəsaitlər ayırsın. Beləliklə, ölkəmizdə həyata keçirilən islahatlar daha da şaxələnməklə yeni sahələri əhatə edir"-deyə, Əli Əhmədov vurğulayıb.

YAP Sədrinin müavini deyib ki, 2019-cu ildə sosial sferada həyata keçirilən islahatlar və sosial siyasət bunlarla yekunlaşmayacaq. Onun sözlərinə görə, bundan sonra da sosial qayğıya ehtiyacı olan təbəqələr dövlət tərəfindən yenə də diqqət mərkəzində olacaq.mümkün qədər onların həyatının yaxşılaşması üçün addımlar atılacaq: "Yeni Azərbaycan Partiyası olaraq biz hökumətin bu siyasəti geniş ictimaiyyət arasında təbliğ etməliyik. İnsanlarımız Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin sosial mahiyyətini aydın şəkildə dərk etməlidir. Bu siyasətin mərkəzində insan amili dayanır. Digər tərəfdən, həyata keçirilən islahatlarr dövlətin qüdrətini artırır. Bundan sonra da islahatların həyata keçirilməsi sayəsində iqtisadiyyatımız daha da möhkəmlənəcək, dövlətin iqtisadi qüdrəti daha da artacaq və dövlət vətəndaşların rifahının yüksəldilməsi istiqamətində atacağı addımları daha da genişləndəcək".

Müşavirədə Əli Əhmədov partiyanın rayon və şəhər təşkilatlarının sədrlərinə tövsiyələrini verib.

# Naxçıvan Ali Məclisində görüş keçirilib

Martın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Araz Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Möhsün Nərimanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri Möhsün Nərimanı təbrik edərək ona yeni vəzifəsində uğurlar arzulayıb, muxtar respublikanın iş adamlarının Araz Azad Ticarət və Sənaye Zonası ilə əlaqələrinə diqqəti çəkib.



Maku Azad Ticarət və Sənaye Zonasının nümayəndə heyətinin Naxçıvana səfərini xatırladan Ali Məclisin Sədri muxtar respublika ilə sərhəddə iki azad ticarət və sənaye zonasının, eləcə də gömrük-keçid məntəqələrinin fəaliyyətinin mühüm əhəmiyyət daşıdığını bildirib. Ali Məclisin Sədri deyib ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında həyata keçirilən səfərlər, iqtisadi, mədəni, təhsil və energetika sahələrindəki əlaqələr, hər iki tərəfdən dövlət qurumlarının qarşılıqlı fəaliyyəti və Araz çayından səmərəli istifadə uğurlu əməkdaşlığın nəticəsidir.

Ali Məclisin Sədri əminliyini bildirib ki, Araz Azad Ticarət və Sənaye Zonasının nümayəndə heyətinin muxtar respublikaya səfəri əlaqələrin inkişafı baxımından səmərəli olacaqdır.

Möhsün Nəriman Ali Məclisin Sədri ilə görüşdən və Naxçıvana səfərindən məmnunluğunu ifadə edib, göstərilən xoş münasibətə görə minnətdarlığını bildirib. Əlaqələrin müxtəlif sahələrdə inkişafı üçün imkanların və qarşılıqlı marağın olduğunu deyən qonaq Araz Azad Ticarət və Sənaye Zonasının bu işdə rolunu vurğulayıb. Möhsün Nəriman Şərqi Azərbaycan Vilayətinin valisi Məhəmmədrza Purməhəmmədinin salamlarını Ali Məclisin Sədrinə çatdırıb. Ali Məclisin Sədri Şərqi Azərbaycan Vilayətinin valisinin salamlarına görə təşəkkür edib, onun da salamlarını Məhəmmədrza Purməhəmmədiyə çatdırmağı xahiş edib. İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom görüşdə iştirak edib.

# Zeynal Nağdəliyev: Prezident İlham Əliyevin tapşırığı ilə keçirilən Novruz yarmarkalarında elə məhsullar var ki, qiyməti iki dəfədən çox aşağıdır



Novruz bayramı ilə bağlı kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarının təşkili Prezident İlham Əliyevin birbaşa tapşırığıdır. Bunu Azərbaycan Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi-şöbə müdiri Zeynal Nağdəliyev deyib.

Z.Nağdəliyev qeyd edib ki, Prezident İlham Əliyev bu gündən Novruz bayramı ilə bağlı belə yarmarkaların hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün olmaq şərtilə təşkil olunmasını tapşırıb.

Prezidentin köməkçisi vurğulayıb ki, 14 yerdə təşkil olunan yarmarkalarda satışa 42 rayondan 52 çeşiddə məhsullar çıxarılıb: "Yarmarkaların keçirilməsində əsas məqsəd odur ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlər, sahibkarlar öz məhsullarını gətirib bu yarmarkalarda sata bilsinlər. Həmçinin şəhər sakinləri ucuz qiymətə məhsullar alsınlar. Elə məhsullar var ki, qiyməti iki dəfə, iki dəfədən çox aşağıdır, elə məhsullar da var ki, topdansatışdan 20 faiz, bazar qiymətlərindən isə 30-40 faiz ucuzdur. İşi elə səviyyədə təşkil etməliyik ki, qiymətlər nəzərəçarpacaq dərəcədə aşağı olsun, eyni zamanda, çeşid genişlənsin və keyfiyyət yüksək olsun". Z.Nağdəliyev hesab edir ki, belə yarmarkaların təşkili bayram əhvali-ruhiyyəsinə çox müsbət təsirini göstərəcək: "Bu, cənab Prezidentin tapşırığıdır və biz bunu çox düzgün səviyyədə həyata keçirəcəyik".

# Hikmət Hacıyev: "Sumqayıt hadisələrini təşkil edən etnik erməni Qriqoryanda bir çox sualların cavabı var"

Sumqayıt hadisələrini təşkil edən etnik erməni Qriqoryanda bir çox sualların cavabı var. Trend-in məlumatına görə, bu barədə Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.



H.Hacıyev bildirib: "Biz 1988-ci il Sumqayıt hadisələrinin yalançı təbliğatının şahidi olmuşuq. Qəribədir ki, Ermənistanda heç kim, hətta diaspora Eduard Qriqoryanın yerini bilə bilə ona suallar verməyib. Sumqayıt hadisələrini təşkil edən etnik erməni Qriqoryanda bir çox sualların cavabı var".

# Siyavuş Novruzov: “Prezidentin bu addımı bankların sağlamlaşdırılmasına təkan verdi”

*Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzovun SƏS TV-yə müsahibəsi:*

***- Siyavuş müəllim, cənab Prezident İlham Əliyev İqtisadi və sosial məsələlərlə bağlı müşavirədə bildirdi ki, 2019-cu il əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır. Siz bunu necə şərh edərdiniz?***

- Azərbaycanda aparılan iqtisadi islahatlar, şəffaflaşdırma siyasəti bödcə gəlirlərinin artmasına, maliyyə imkanlarının əhəmiyyətli dərəcədə yüksəlməsinə şərait yaratdı və cənab Prezident ilk növbədə bu vəsaitlərin məhz sosial sferaya yönəldilməsini təmin etdi. 2019-cu il başlayandan sosial sahədə atılan addımlar həyata keçirilən böyük sosial paketin tərkib hissəsidir. Bu addımlar cənab Prezident tərəfindən hələ ötən il müxtəlif tədbirlərdə anons edilib və hazırda onun reallaşdırılması prosesi gedir.

Bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Azərbaycan hakimiyyətinin yürütdüyü sosial siyasət həqiqətən də inqilabi xarakter daşıyır. Bu, ilk növbədə cənab Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Görülən bütün işlərin arxasında Azərbaycan vətəndaşının həyat səviyyəsinin yüksəldilməsi, onun rifahı dayanır. Bildiyiniz kimi, hazırda 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir. Şəhid ailələrinin müavinətləri 242 manatdan 300 manata qədər artırıldı. Bu günə qədər 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilib. Bu il minimum əməkhaqqı 38 faiz artaraq 130 manatdan 180 manata qaldırıldı. Eləcə də dövlət qulluğunda çalışan insanların əməkhaqqlarının artırılması nəzərdə tutulub. Bir sözlə, bütün təbəqələrdən olan məsələlərin hər biri çox vacib amillərdəndir. Bu sahədə çox ciddi, hətta deyərdim ki, indiyədək Azərbaycan tarixində olmayan addımlar atıldı və bu proses əhalinin bütün təbəqələrinə, eyni zamanda həm çoxuşaqlı analara, həm də yeni doğulmuş körpələrə və s. şamil olundu.

***- Ölkə başçısı “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” Fərman imzaladı. Bu Fərmanın əsas mahiyyəti nədən ibarətdir?***

- Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” Fərman çox böyük bir addımdır. Heç kimə sirr deyil ki, bu gün dünyada baş verən iqtisadi dəyişikliklər və iri ölkələrin iqtisadiyyata diqtəsi nəticəsində müəyyən dəyişikliklər baş verir. Dəfələrlə qeyd etmişəm ki, neftin qiymətinin aşağı düşməsi və artması iqtisadi proseslərdən asılı deyil, əksinə siyasi proseslərdən daha çox asılıdır. Təbii ki, bəzi dövlətlər də bundan sui-istifadə edir və nəticədə bunun əziyyətini bir çox ölkələrin vətəndaşları çəkir. Bu gün devalvasiyaya ən az məruz qalan Azərbaycan manatı oldu. Çünki rus rublu, türk lirəsi, çin yuanında ən azı 4-5 dəfə fərqli dəyişiklilər olundu. Məsələn, Türkiyə lirəsi “1 ABŞ dolları-6 türk lirəsi” səviyyəsinə gəlib çıxmışdı. Eləcə də Avropa dövlətlərinin özündə də avroya nisbət kəskin şəkildə dəyişdi. Məhz bunun nəticəsində kredit götürən insanlarda xüsusilə fiziki şəxslərdə böyük problemlər yarandı. Bu gün 10 min ABŞ dolları məbləğində götürülən kreditlərin əksəriyyəti demək olar ki, bu və ya digər şəkildə problemi həll etməkdən ötrü götürülən kreditlər idi. Elə insanlar var idi ki, bu kreditləri müalicə məqsədilə, yas, toy mərasimini yola vermək üçün götürmüşdü və s. Ümumilikdə insanlar üçün bir növ çətinlik yaranmışdı. Təbii ki, bu da Azərbaycan əhalisinin 30 faizdən yuxarısı təşkil edirdi. Cənab Prezident bir daha göstərdi və sübut etdi ki, hər şey vətəndaşlar üçün nəzərdə tutulub. İlk növbədə bunları ödəmək üçün gərək ölkənin iqtisadi potensialı və gücü olsun. Ölkənin iqtisadi potensialı olmadığı təqdirdə belə addımlar atmaq mümkün deyil. Bəziləri iddia edirlər ki, guya bütün bunlar mitinqlərin nəticəsində mümkün olub. Əksinə, bunlar xalqı çaşdırmaq üçün söylənilən fikirlərdir. Əgər ölkənin iqtisadi potensialı yaradılmayıbsa, bunu necə həll edə bilərsən? Bu məsələlər seçkilər dövründən başlayaraq sonradan isə noyabr ayında dövlət büdcəsi müzakirə olunanda bura daxil olunmuşdu. Burada banklara da heç bir



ziyan dəymədi. Çünki bu addım həm bankların sağlamlaşdırılmasına, həm də inkişafına təkan verdi. Hətta deyərdim ki, banklar da buradan qazandı və vətəndaşlar da öz problemlərini həll etdi. Digər sahələrdə də işlər gedir ki, bu da hüquqi şəxslərlə bağlı olan məsələlərdir. Bütövlükdə götürdükdə böyük bir hissə bu cür problemdən qurtuldu. Ən əsası çox ciddi şəkildə bu məsələyə nəzarət var. Hətta vətəndaşların banklara ödədiyi pulda artığı varsa, o vətəndaşa geri qaytarılacaq. Bu gün dünyanın heç bir ölkəsində məsələn, Sinqapurda, Böyük Britaniyada və s. belə hallar baş vermir. Mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında” 14 mart 2012-ci il tarixli Fərmanının tarixi əhəmiyyətinə toxunmaq istərdim. Həmin Fərmanla 2012-ci il iyunun 1-dən keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsinə başlandı və əmanətçilərdən müraciətlərin qəbulu müvafiq Fərmana uyğun olaraq, 31 dekabr 2012-ci il tarixində başa çatdırıldı. Bu gün cənab Prezidentin dediyi kimi nə yaradılırsa, qurulursa hamısı vətəndaşlar üçün edilir. Təbii ki, bunun üçün də illərlə ölkənin iqtisadi potensialı mövcud olmalıdır. Sabah bizi əhatə edən dövlətlərdən biri desə ki, mən də bunu edəcəyəm, əgər potensial yoxdursa bunu hansı əsaslarla edə bilər? Bu baxımdan da insanlar artıq bunu görür və dərk edir. Məhz buna görə də Azərbaycan xalqı, vətəndaşları cənab Prezidenti dəstəkləyirlər. İqtidar-xalq birliyinin də bariz nümunəsi məhz bundan ibarətdir.

***- Gürcüstan prezidenti Salome Zurabişvili ilk səfərlərindən birini Azərbaycana etdi. Bu gün iki ölkə arasındakı əlaqələri necə xarakterizə etmək olar?***

- Bu gün Gürcüstan Azərbaycanla həm iqtisadi, siyasi, həm də elmi, mədəni və s. əlaqələrlə çox ciddi şəkildə bağlıdır. Bizim iqtisadi layihələrimizin böyük əksəriyyəti Gürcüstan üzərindən keçməklə dünya bazarına çıxarılır. Təbii ki, bundan Gürcüstan kifayət qədər vəsait əldə edir. Orada yeni iş yerləri açılır və vətəndaşlar işlə təmin olunurlar. Bununla belə Gürcüstanla Azərbaycan bir-biri ilə səmimi qonşuluq münasibətini qoruyub saxlayır. Bəzi hallarda bu məsələləri qarışdırmaq istəyənlər olur. Məsələn, Gürcüstanın Axalkalaki rayonunun Buğaşen kəndində erməni hərbçi Mixail Avaqyana abidənin qoyulması kimi əməllərlə təxribat yaratmaq istəyirlər. Ümumilikdə artıq onlarda başa düşür ki, Gürcüstan-Azərbaycan-Türkiyə birlikdə böyük layihələr həyata keçirirlər. Bu gün Gürcüstan və Azərvaycanın turizm sektorundan hər iki ölkə faydalanır və gəlir əldə edir. Eləcə də Azərbaycanın müəyyən istehsal etdiyi məhsullardan Gürcüstan istifadə edir. Bu baxımdan da qarşılıqlı münasibətlər mövcuddur. Orada azərbaycanlılar kifayət qədər kompakt halda yaşayırlar və fəaliyyət göstərirlər. Onlar Gürcüstan dövlətinə bu günə kimi hər hansı bir problemlər yaratmayıblar. Hətta deyərdim ki, onlar Gürcüstan dövlətinin nümunəvi vətəndaşıdırlar. Soydaşlarımız həm seçkilərdə fəal iştirak edirlər, həm də kənd təsərrüfatı məhsullarının istehsal olunmasında aktiv rola malikdirlər. Bir sözlə, nümunəvi vətədaşlıq nümayiş etdirirlər.

***- Bu yaxınlarda Azərbaycan daha bir mötəbər tədbirə ev sahibliyi edəcək. “Dinlər və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru” mövzusunda təşkil olunacaq Beynəlxalq konfransın əhəmiyyəti barəsində nə deyə bilərsiniz?***

- Azərbaycan artıq bu missiyanı öz üzərinə götürüb. Azərbaycanda bununla bağlı bir çox konfranslar, toplantılar keçirilib. Heydər Əliyev Fondu bu məsələlərdə çox yaxından iştirak edir və bu işlərin böyük hissəsinə rəhbərlik edir. Azərbaycanda mütəmadi olaraq Bakı Forumu keçirilib. Artıq neçə illərdir ki, bu davam etdirilir. Azərbaycan dünyaya bir nümunədir. Çünki ölkəmizdə qanunla qadağan olunmayan bütün dinlər azad şəkildə fəaliyyət göstərir. Dövlət tərəfindən onlara daimi olaraq diqqət və qayğı göstərilir. Baxmayaraq ki, Azərbaycanda din dövlətdən ayrıdır, amma bununla yanaşı ölkəmizdə tolerantlıq, dini dözümlülük mövcuddur. Avropada və dünyanın hər bir yerində keçirilən konfranslarda da bu məsələlər öz əksini tapmaqdadır. Çünki Azərbaycanda məscidlərlə yanaşı, kilsələrin, sinaqoqların, digər ibadət yerlərinin təmirini, tikintisini dövlət həyata keçirir. Eləcə də ayrı-ayrı dini icmalara dövlət büdcəsindən vəsaitlər ayrılır və onların tam azad, sərbəst şəkildə öz funksiyalarını yerinə yetirmələri təmin olunur. Bu baxımdan da Azərbaycanda tək o deyil, istənilən bir tədbir ən yüksək təşkilatçılıqla keçirilir. Bildiyiniz kimi, ölkəmizdə Avroviziya mahnı müsabiqəsi, I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları keçirilmişdi. Həmin tədbirlərdə yüksək səviyyədə təşkil olunmuşdu.

***- Ermənistan rəhbərliyinin danışıqlar prosesinin formatının dəyişdirilməsi barədə iddiaları qəsdən danışıqları dalana salmaq və danışıqlar prosesini pozmaq cəhdləri nədən xəbər verir?***

- Bu gün Ermənistanda hakimiyyətə gələn qüvvələr hələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlara hazır deyil. Onlar ümumiyyətlə idarəçilikdə olmayıblar. Küçələrdə, meydanlarda olmaq bir başqa, dövlətin idarə olunması, dövlətin problemlərinin həll olunması, iqtisadiyyatın inkişafı, social vəziyyətin yaxşılaşdırılması tamam başqadır. Bu gün Ermənistan rəhbərliyində təmsil olunan insanların nə təcrübəsi, nə də bu sahədə hər hansı bir bilgisi var. Ona görə də Ermənistan baş naziri Nikol Paşinyan bu və ya digər şəkildə vaxtı uzadır. Yəni bu problemin həlli hələ Ermənistan rəhbərliyinin özü üçün qaranlıqdır. Bu baxımdan da başa düşülən bir məsələdir ki, başqa cür bəhanə yoxdur. Ona görə də danışıqların formatının dəyişdirilməsi, Dağlıq Qarabağın burada tərəf kimi iştirakını ortaya atmaqla vaxt uzatmaq istəyir. İkincisi isə oradakı hakimiyyətin taleyi hələ qeyri müəyyəndir. Çünki verilən vədlər yerinə yetirilmir, əhalinin güzəranı getdikcə pisləşir və əhali ölkəni tərk edir. Hər il yüz mindən artıq insan Ermənistanı tərk edir, heç bir müəssisə, təşkilat işləmir və yeniləri də açılmır. Eləcə də turizm sektoru sıfır dərəcəsindədir. Keçmişdə dövlət vəzifəsində olanlar artıq həbs edilir. Çünki onların kifayət qədər həm Azərbaycana, həm də öz vətəndaşlarına qarşı cinayət əməlləri var. Paşinyan onlardan pul qoparmaqla dövlət büdcəsini formalaşdırmaq istəyir. Çünki onun başqa yerdən gəliri yoxdur. Xarici dövlətlərin verdiyi qrantlar, yardımlar hesabına istəyirlər ki, heç olmasa əhalinin pensiyasını təmin etsinlər. Bu da uzağı bir il çəkəcək və yenidən Ermənistan olduğundan da ciddi iqtisadi böhran vəziyyətinə düşəcək.

***- Xaricdə oturan anti-milli dairələr, qruplar tərəfindən ölkəmizə qarşı “söyüş kampaniyası” davam etməkdədir. Sizcə, bunun qarşısının alınması istiqamətində hansı mexanizmlər tətbiq olunmalıdır?***

- Bu gün xaricdən ölkəmizə qarşı davam etdirilən “söyüş kampaniyası” həm hüquqi müstəvidə, həm də Azərbaycan vətəndaşlarının ictimai qınağı vasitəsilə aradan qaldırılır. Təbii ki, söyüş kampaniyasında olanlar heç öz doğma valideynlərini eşitmirlər. Xarici təşkilatlar qrantları məhz o söyüşə görə verirlər. Çünki onlarda hər hansı bir təhlil aparmaq qabiliyyəti, təklif vermək qabiliyyəti və hər hansı bir məsələyə münasibət bildirmək düşüncəsi yoxdur. Bunlar Dağlıq Qarabağda törətdiyi cinayətlərə, soyqırımlarına görə Ermənistana qarşı bir kəlmə də olsun əks fikir söyləməyiblər. Əgər fikir söyləsələr dərhal qrantları kəsiləcək. Bu baxımdan da əksinə, Ermənistanı təbliğ edərək guya orada demokratik ab-havanın yüksək səviyyədə olması barədə absurd fikirlər söyləmələri və insanlara müraciət etmələri Azərbaycan xalqı tərəfindən nifrətlə qarşılanır. Hesab edirəm ki, ilk növbədə onlar öz çıxışlarında anti-dövlət, anti-milli fikirlər (silah yolu ilə üsyan, çevriliş etmək və s.) səsləndiriblər. Təbii ki, bunlar hamısı Cinayət Məcəlləsinə tövsif olunur.

Bu məsələ ilə əlaqədar Azərbaycan Respublikasının Prokurorluğu cinayət işi qaldırmalıdır və İnterpol vasitəsilə həmin adamların tutulub gətirilməsi təmin olunmalıdır. Necə ki, bu proses artıq davam edir. Eləcə də onların Azərbaycan məhkəmələri qarşısında cavab verməsi təmin olunmalıdır. İkincisi, həmin ölkələrdə fəaliyyət göstərən və Azərbaycanda olan səfirliklərə müraciət olunmalıdır. Soruşulmalıdır, əgər onların hər hansı bir vətəndaşı Azərbaycan ərazisindən öz dövlətlərinə qarşı “söyüş kampaniyaları” aparardılarsa, onlar hansı addımı atardırlar? Hesab edirəm ki, bu məsələlər onların diqqətinə çatdırılmalıdır. Üçüncü yol isə ictimai qınaqdır. Azərbaycan xalqı kifayət qədər savadlı xalqdır. Azərbaycanın kifayət qədər tanınmış insanları var. Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü oldu. Orada qaldırılan məsələlərin hər biri dərhal öz həllini tapdı. Amma bu günə qədər xaricdə oturanlar hələ bir məsələ qaldırmayıblar. Onlar ağızları söyüşlə açılıb-bağlanır. Guya ölkə dağılır, burada inkişaf yoxdur və s. Amma xaricdən ölkəmizə gələnlərin hər biri görür ki, Azərbaycanda nə qədər inkişaf vardır. Heç şübhəsiz ki, onların burada oturan əlaltıları - “sapı özümüzdən olan baltaları” da qaldırılan məsələlərin öz həllini tapmasına görə əndişələnirlər. Əfv olunacaq şəxslərlə bağlı artıq Əfv Komissiyası işləyir. Siyasi baxışlarından asılı olmayaraq cinayət törətmiş şəxslər bu və ya digər şəkildə öz peşmançılıqları ilə əlaqədar müraciət edirlər. Əfv Komissiyası bu məsələlərə baxır.

Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanda bu addımlar davamlı olaraq atılıb. Bu gün 70-dən artıq əfv, 13-ə yaxın amnistiya aktı qəbul olunub. Sonuncu amnistiya aktı da ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul olunmuşdu ki, bu da 10 mindən artıq insana şamil edilmişdi. Yəni bunlar hamısı Azərbaycanda olub. Onları narahat edən nədir? Bunlar o adamların adından və ailə üzvündən istifadə edirlər. Amma həmin insanlar azadlığa çıxdığı halda onlarla maraqlanmırlar. Çünki həmin insanlar bunlar üçün istifadə qaydasıdır və ondan da kifayət qədər gəlir əldə edirlər. Məsələn, keçmişdə Leyla Yunus və bir qrup hüquqmüdafiə təşkilatları var idi ki, onlar bu və ya digər şəkildə cinayət törətmiş şəxslərdən pul alaraq guya onların adını siyahıya salıb “siyasi məhbus” adı altında Avropaya, başqa-başqa yerlərə göndərəcəkdilər. Hətta bundan sui-istifadə edən bəzi vəkillər də var idi. Onlar şantaj yolu ilə insanların guya azadlığa buraxılmasına çalışmaq istəyirdilər. Həmin metod bu gün Azərbaycanda müxtəlif qurumların və siyasi partiya rəhbərlərinin “çörək ağacı”na çevrilib. Bu məsələ də yaxın vaxtlarda Azərbaycanda öz həllini tapacaq. Onlar qəsdən qızışdırırlar ki, dövlət buna getməsin. Çünki dövlətin bu cür addımlar atması onlara sərf etmir”.

***Ceyhun Rasimoğlu***

# Naxçıvan Muxtar Respublikası: inkişafı ilə bədxahları narahat edən möcüzə



***Heç kəsə sirr deyil ki, bu gün ölkə iqtisadiyyatında özünəməxsus yeri olan Naxçıvan Muxtar Respublikası, bütün sahələrdə, sistemli şəkildə həyata keçirilən islahatlarla dinamik inkişaf dövrünü yaşayır. Həyata keçirilən, digər mühüm tədbirlər nəticəsində, muxtar respublikada bütün makroiqtisadi göstəricilərin artımı təmin edilib və dinamik inkişaf qorunub-saxlanıb.***



Naxçıvanda müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması, özəl sektorun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinin, elm, təhsil, mədəniyyət, turizm sektorlarının inkişafı istiqamətində çoxsaylı layihələr icra edilib. Bütün bunlarla yanaşı, əhalinin güzəranı daha da yaxşılaşıb və işsizlik əhəmiyyətli dərəcədə azaldılıb.

Naxçıvandakı inkişaf tendensiyası muxtar respublikanın demoqrafiq vəziyyətində də özünü büruzə verir. Hazırda Naxçıvanın əhalisinin sayı yarım milyon nəfərə çatıb, eyni zamanda, əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması ölüm göstəricisini də aşağı salıb. Eləcə də, muxtar respublikanın sosial-iqtisadi inkişafının məntiqi nəticəsi olaraq, hər il ixracın həcmi idxalı üstələyir, xarici ticarət əlaqələri genişlənir. Məsələn, bu gün Naxçıvan Muxtar Respublikası dünyanın 60-dan çox ölkəsi ilə ticarət əməliyyatları aparır. Bütün bunlarla yanaşı, muxtar respublikada bütün infrastruk layihələri uğurlu bir şəkildə reallaşdırılıb. Yol, su, qaz, elektrik infrastrukturu, sosial xidmət obyektləri tamamilə müasir standartlar səviyyəsində qurulub. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında deyib ki, "Naxçıvan uğurla, sürətlə inkişaf edir. Son illər ərzində, muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir".

Məhz bu kontekstdə o da bildirilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədri olduğu və dünyanın 70 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirən "Caspian European Club" 2017-ci ildə ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirdiyi zaman Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq, liderliyə yüksəlib.

Bir sözlə, Naxçıvan Muxtar Respublikasının daxili resurslar hesabına yüksəlişini inamla davam etdirməsi, yeni-yeni nailiyyətlərə imza atması müstəqil Azərbaycan dövlətinin ən böyük uğurlarından biridir və bütün bunların başlıca səbəbi Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının muxtar respublikada Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən uğurla davam etdirilməsidir. Lakin çox təəssüflər olsun ki, son günlər ərzində, Naxçıvanın inkişafından narahat olan bəzi qüvvələr qarayaxma kampaniyasına başlayıblar.

Əlbəttə ki, bu gün baş verənlər mənə bu gün adları bəlli olan bədxahlar tərəfindən Naxçıvan Muxtar Respublikasının hüquqi statusuna, mövcudluğuna, hərtərəfli inkişafına, Naxçıvan MR Ali Məclisinin sədrinin səlahiyyətlərinə edilən hücumlar 1990-cı illərdə Ulu Öndər Heydər Əliyevin Naxçıvanı bəlalardan qorumaq üçün Ona qarşı təşkil olunan təxribatları xatırladır. Məhz həmin dövrdə də Ümummilli Liderimiz Heydər Əliyev Naxçıvanı real təhdidlərdən və təhlükələrdən xilas etmək üçün tədbirlər gördüyü zamanlarda o zamankı AXC-Müsavat hakimiyyəti silahlı dəstələrlə hücumlar edirdilər. Məqsədləri isə Naxçıvanın dirçəlişinə mane olmaq idi. Bu gün isə kimlərinsə maraqlarına xidmət edən Qüdrət Həsənquliyev kimi bəzi missionerlər tərəfindən reallaşdırılan hücumlar silahsız olsa da, məqsəd və təhdid baxımdan daha təhlükəli xarakter daşıyır. Bugünkü bədxahlar Naxçıvana və Azərbaycana qarşı Ulu Öndər Heydər Əliyevin miras qoyduğu dəyərlərə kölgə salmaq məqsədilə müxtəlif yalanlar uydurmaqla məşğuldurlar.

Ölkəmizin geosiyasi vəziyyətini, qanunvericiliyini bilmədən, təhlil etmədən blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının hərtərəfli və dayanıqlı inkişafına ləkə vurmağa çalışanlar bu mövqeləri və fikirləri ilə Azərbaycan hakimiyyətinə qarşı ölkə daxilində və xaricdə təhqir kampaniyası təşkil edənlərdən heç də fərqlənmirlər. Naxçıvanın statusuna və rəhbərliyinə qarşı əsassız iddialar irəli sürmək, ittiham etmək, "cəlbedici təkliflərlə" muxtar respublikanı düşmənlərimizin açıq hədəfinə çevirmək yalnız "sapı özümüzdən olan baltaların"" işi ola bilərdi.

Unitar quruluşlu Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının tarixi statusu hər zaman düşmənlərimizi, xüsusilə də, erməniləri ciddi narahat edib və fürsət düşdükcə də müxtəlif kanallar vasitəsilə hücumlarını həyata keçiriblər. Uzun müddət qanunvericilik orqanında təmsil olunan, partiya sədri kimi siyasətdə olan birinin məsuliyyətsiz fikirlər səsləndirib. Naxçıvanla bağlı ictimai rəyi çaşdırmaq cəhdləri, eləcə də, Naxçıvan Muxtar Respublikasının hüquqi statusuna, mövcudluğuna, hərtərəfli inkişafına, Naxçıvan MR Ali Məclisinin sədrinin səlahiyyətlərinə edilən hücumlar ermənilərin təxribatları ilə sinxronluq təşkil etdiyindən, sual ortaya çıxır ki, daxili bədxahlarımız da düşmənlərimizin çörəyinə yağ sürtənlərdəndirlərmi? Əlbəttə, tənqid olmalıdır. Amma bu tənqid təhqirə və milli təhlükəsizliyə təhdidə çevrilməməlidir.

Naxçıvanın timsalında Azərbaycanın dövlət quruluşuna, milli təhlükəsizliyinə hücum edənlər anlamalıdırlar ki, Vətənimizin ayrılmaz bir parçası olan, intibah dövrünü yaşayan möcüzələr diyarı Naxçıvanın əhalisi gələcəyə böyük inamla baxır və Cənab Prezident İlham Əliyevi və Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovu perspektiv müvəffəqiyyətlərin zəmanəti kimi görür. Bədxahların məsuliyyətsiz fikirləri və təxribat cəhdləri, hər zaman olduğu kimi, bundan sonra da nəticəsiz qalacaq.

***"Səs" Analitik Qrupu***

# Nərgiz Paşayeva Rusiya Təhsil Akademiyasının akademiki seçilib



M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti akademik Nərgiz Paşayeva fevralın 27-də Rusiya Təhsil Akademiyasının (RTA) üzvlərinin ümumi yığıncağında M.V.Lomonosov adına MDU-nun rektoru, akademik V.Sadovniçinin təqdimatına əsasən yekdilliklə RTA-nın akademiki (xarici üzvü) seçilib.

http://rusacademedu.ru/news/v-rossijskoj-akademii-obrazovaniya-proshlo-obshhee-sobranie-chlenov-rao/

Xəbər verilir ki, Rusiya Təhsil Akademiyasının yeni, o cümlədən xarici üzvləri maksimum dərəcədə şəffaf prosedur əsasında - gizli səsvermə yolu ilə, səslərin hesablanması üçün RF Mərkəzi Seçki Komissiyası tərəfindən keçirilən ümumrusiya seçkilərində istifadə edilən qaydalara analoji olan elektron vasitələr (KOİB) tətbiq edilməklə seçilib. Yığıncağa qatılan Akademiya üzvlərinin hamısı səsvermədə iştirak edib. Ümumi yığıncaqda 200-ə yaxın görkəmli rusiyalı və əcnəbi alim, Akademiyanın üzvləri, RF Prezidenti Administrasiyasının, RF Hökumətinin, federal nazirlik və idarələrin, RF Dövlət Dumasının nümayəndələri, RTA Qəyyumlar Şurasının üzvləri, görkəmli elm və dövlət xadimləri iştirak ediblər.

Yığıncaqda "Təhsil" və "Elm" milli layihələrinin həyata keçirilməsində Rusiya Təhsil Akademiyasının iştirakı, habelə RTA-nın inkişafına dair perspektiv planlar və ən yaxın genişmiqyaslı layihələr müzakirə edilib. Yığıncağın ikinci hissəsində Akademiyanın yeni üzvlərinin və onun idarəetmə orqanlarının nümayəndələrinin seçkiləri keçirilib.

Professor Nərgiz Paşayeva ilə yanaşı, Li-Yanki Xannelora (Almaniya Federativ Respublikası və İsveçrə Konfederasiyasının vətəndaşı) və Fransisko Pons (İspaniya Krallığı və İsveçrə Konfederasiyasının vətəndaşı) da RTA-nın xarici üzvləri seçiliblər.

# "Birinci xanımın muğama olan diqqətini xüsusi qeyd etmək lazımdır"



"Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimləri ilə görüşü, diqqət və qayğının daha bir əyani göstəricisidir. Heç bir ölkədə mədəniyyət və incəsənət xadimlərinə Azərbaycandakı qədər diqqət və qayğı göstərilmir". Bu sözləri SİA-ya açıqlamasında xalq artisti, opera ifaçısı Samir Cəfərov deyib. O, əlavə edib ki, Prezident İlham Əliyev mədəniyyət və incəsənət xadimlərinin qayğılarını, problemlərini hər zaman diqqətdə saxlayır. Dövlətimizin başçısı onlara mükafatların verilməsi, yubileylərinin keçirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq sərəncamlar imzalayır. Prezidentin bu diqqət və qayğısı həmişə sevinclə və rəğbətlə qarşılanır. Birinci xanımın muğama olan diqqətini xüsusi qeyd etmək lazımdır. Azərbaycan musiqisi bu gün dünya ölkələrində səslənir və olduqca maraqla qarşılanır".

# Bəhram Qasemi: "ermənilərin Azərbaycan əleyhinə şüar qaldırmaları yolverilməzdir və özbaşınalıqdır"



Ermənistanın baş nazirinin İrana səfəri zamanı Tehrandakı "Ararat" klubunda keçirdiyi görüşdə ermənilərin Azərbaycan əleyhinə şüar qaldırmaları yolverilməzdir və özbaşınalıqdır. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Bəhram Qasemi keçirdiyi həftəlik mətbuat konfransında deyib.

B.Qasemi qeyd edib ki, İranın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi aydındır. Rəsmi Tehran münaqişənin sülh yolu ilə beynəlxalq prinsiplər çərçivəsində həll olunmasına tərəfdardır. İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

İki ölkə arasındakı münasibətlərə toxunan B.Qasemi nəzərə çatdırıb ki, Azərbaycan və İran xalqları ortaq tarixə, mədəniyyətə, adət-ənənəyə malikdirlər. Bu gün Tehran ilə Bakı arasındakı əlaqələr bütün sahələrdə yüksələn xətlə inkişaf edir. Hər iki dövlətin prezidenti siyasi iradə nümayiş etdirərək əlaqələri inkişaf istiqamətinə yönəldib. Birgə iqtisadi layihələr, beynəlxalq təşkilatlar çərçivəsində yaxın əməkdaşlıq münasibətlərin mehriban qonşuluq və dostluq əsasında qurulduğunu göstərir. İran bütün qonşuları ilə yaxşı münasibətdə olmağa çalışır və regionda sülhün və təhlükəsizliyin davamlı xarakter daşımasında maraqlıdır.

# Sosial siyasət inqilabi xarakter daşıyır

*İlham Əliyev: "Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi insanların daha da yaxşı yaşamaları məqsədi daşıyır"*

***Bu gün, birmənalı şəkildə demək olar ki, Azərbaycanda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində əhalinin bütün təbəqələrinin, xüsusi ilə də, sosial cəhətdən həssas insanların sosial-rifah halı daha da yaxşılaşır. Son vaxtlar Prezident İlham Əliyev tərəfindən əmək və sosial müdafiəsi sistemi ilə bağlı onlarla Fərman və Sərəncam imzalanması bu sahənin inkişafına yüksək diqqət və qayğının bariz nümunəsidir. Bu sənədlər sosial cəhətdən həssas təbəqələrə dövlət qayğısının əhəmiyyətli şəkildə artırılmasına və yeni sosial təminat növlərinin formalaşmasına imkan yaratmaqla, milli əmək və sosial müdafiəsi sisteminin mütərəqqi islahatlar mərhələsinə daxil olmasına şərait yaradıb.***

Təsadüfi deyildir ki, bu gün dünyada kəskinləşən böhran əksər ölkələrdə bir sıra sosial proqramların təxirə salınması ilə müşahidə olunduğu halda, Azərbaycan Prezidenti ölkəmizdə bütün sosial proqramların uğurla davam etdirilməsini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Əhalinin, xüsusən də, aztəminatlı təbəqənin alıcılıq qabiliyyətinin artırılması, milli valyutanın devalvasiyasının və qiymət artımının təsirlərinin azaldılması məqsədi ilə müxtəlif sosial ödənişlərin, o cümlədən, əmək haqlarının, pensiyaların, müavinətlərin, təqaüdlərin və kompensasiyaların artırılması məsələsinə mühüm önəm verilir. Prezident İlham Əliyev



**NƏRİMAN ƏLİYEV,**
***Milli Məclisin deputatı***

bununla bağlı deyib: "Sosial siyasət həmişə prioritet olub və olacaq. Bütün atılan addımlar, bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi insanların daha da yaxşı yaşamaları məqsədi daşıyır".

## Sosial proqramların genişlənməsi iqtisadi islahatlara öz bəhrəsini verir

Söz yox ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mərkəzində insanların rifah halının yaxşılaşması dayanır. Sosial proqramların genişlənməsi iqtisadi islahatların öz bəhrəsini verdiyini göstərir. Bunun nəticəsində, büdcəyə çoxlu vəsaitin daxil olması sosial xarakterli artımlara şərait yaratdı. Azərbaycanda həyata keçirilən islahatlar daha da şaxələnməklə yeni sahələri əhatə edəcək. Sosial sahədə həyata keçirilən islahatlar bununla yekunlaşmayacaq və ehtiyacı olan təbəqə daim diqqət mərkəzində olacaq. Ölkəmizdə inklüzivliyin təmin olunması, əhaliyə göstərilən xidmətlərin əlçatarlığının və keyfiyyətinin artırılması və beləliklə də, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, sosial infrastruktur quruculuğuna getdikcə daha böyük həcmlərdə maliyyə vəsaiti yönəldilir. Bu və digər faktlar Azərbaycan dövlətinin sosial siyasətinin davamlı səciyyə daşıdığı barədə konkret təsəvvür yaradır. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərə, qaçqın və məcburi



köçkünlərə qayğı, minimum əməkhaqqının, minimum pensiyanın və sosial müavinətlərin artırılması istiqamətində görülən işlər dövlətin öz vətəndaşlarına olan qayğısının təzahürüdür.

Prezident İlham Əliyev bu məslələrlə bağlı demişdir: "Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm və bizim atdığımız addımlar dediklərimi sübut edir. Bizim imkanlarımız artdıqca, ilk növbədə, bu gün hələ də ağır vəziyyətdə, çətin şəraitdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmağa çalışırıq. Son illər bu istiqamətdə çox böyük işlər görülmüşdür. Baxın, köçkünlər üçün 100-dən çox şəhərcik tikilmişdir. Yəni mən bilmirəm, hansı başqa ölkədə buna rast gəlinir. Mən bilirəm ki, bu məsələ ilə məşğul olan beynəlxalq təşkilatlar həmişə Azərbaycanı nümunə kimi göstərirlər. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilmişdir. Mən eşitməmişəm, hansı ölkədə bu kateqoriyadan olan insanlara bu qədər dəstək göstərilir. Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik maddi yardım verilmişdir. Bu da dünya praktikasında analoqu olmayan bir yanaşmadır. Yəni bütün bunlar bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun maraqlarıdır, onun rifahıdır". Prezident İlham Əliyev dövlətin yeritdiyi bu siyasətin mahiyyətindən bəhs edərkən onun mərkəzində, məhz insan amilinin, Azərbaycan vətəndaşının dayandığını dəfələrlə qeyd edib. Bildirib ki, əhalinin sosial təminatının, maddi vəziyyətinin daha da yaxşılaşdırılması üçün genişmiqyaslı sosial-iqtisadi islahatların həyata keçirilməsi prioritet vəzifə kimi hər zaman aktual olaraq qalacaq.

Həyata keçirilən siyasət nəticəsində işsizliyin aradan qaldırılması və məşğulluğun artırılmasında da əhəmiyyətli uğurlara imza atılıb. Yalnız regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurla həyata keçirilməsi ilə işsizliyin aradan qaldırılmasında mühüm nailiyyətlər əldə olunub. 2004-cü ildən bu günə qədər ölkə üzrə təxminən 2 milyona yaxın yeni iş yeri yaradılıb ki, onların da böyük əksəriyyəti daimidir. Yaradılan iş yerlərinin yarısı regionların payına düşür. 2014-2018-ci illəri əhatə edən müvafiq Dövlət Proqramının icrası ə 250 min yeni iş yeri yaradılıb ki, onun da 170 minə yaxını daimidir. Bu fakt, bir daha təsdiqləyir ki, respublikamızda yeni iş yerlərinin açılması prosesi uğurla davam etdirilir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurlu icrası nəticəsində yaranan əlverişli mühit qeyri-neft sektorunun makroiqtisadi əhəmiyyətini də yüksəltmişdir. İqtisadiyyatın çoxşaxəliliyi təmin edilmişdir. Məhz bu nailiyyətlər nəticəsində qeyri-neft iqtisadiyyatının həcmində 2,8 dəfəlik artım qeydə alınmışdır. Faktlar təsdiq edir ki, Azərbaycana yatırılan sərmayənin 93 faizi son 15 il ərzində qoyulub. 2003-2018-ci illərdə ölkəmizə 231 milyard dollarlıq investisiya yatırılıb. Siyasi sabitlik və təhlükəsizliyin möhkəm olması xarici investorları Azərbaycana cəlb edən əsas amillərdir. Bütün bunlar Azərbaycanın gücündən və qüdrətindən xəbər verir. Təbii ki, dövlətimizin sosial-iqtisadi cəhətdən inkişaf etməsi, xalqımızın daha yaxşı və firavan yaşaması deməkdir.

## "Vətəndaşlarımız bir daha gördülər ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır"

İctimai rəydə, birmənalı olaraq, səslənən fikir ondan ibarətdir ki, Prezidentin sosial siyasəti, həqiqətən də, inqilabi xarakter daşıyır. İqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirədə dövlət başçısı İlham Əliyevin "gələcəkdə də pensiyaların və müavinətlərin artılması davam etdiriləcək" fikiri, bir daha təsdiqləyir ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir. Prezident İlham Əliyevin həmin müşavirədə problemli kreditlərlə bağlı məsələnin də həll olunacağını bildirmişdi. Və ardınca ölkə başçısı tərəfindən Fərman imzalandı. Fərmana əsasən, banklarla fiziki şəxslər arasında bağlanmış müqaviləyə görə, fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 min ABŞ dollarınadək olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək. Sənəddə də vurğulandığı kimi, ödəmələr üç aydan gec olmayaraq həyata keçiriləcək. Bəzi ölkələrdə də bu kimi təşəbbüslər irəli sürülüb, lakin son nəticədə, onun həlli dövlətin imkanları üçün ciddi problem yaratdığına görə, ya təxirə salınıb, yaxud da bəlli olmayan müddətə kimi uzadılıb. Azərbaycanda isə, bu baxımdan, vəziyyət tamamilə fərqlidir. Belə ki, ölkə Prezidentinin məlum Fərmanı ilə devalvasiya nəticəsində insanlara dəyən ziyanı dövlət ödəyəcək. Eyni zamanda, dövlət başçısının bu addımı ilə problemli kreditlər üzrə məhkəmə çəkişmələrinə son qoyuldu və məhkəmə çəkişmələri vətəndaşların xeyrinə həll olundu.

Bu, dövlətin təkcə problemli kreditlərin həlli məsələsinə verdiyi töhfə deyil. Eyni zamanda, ölkənin bank sistemi və vətəndaşların kreditlərlə bağlı bundan sonrakı fəaliyyətlərinə də stimul yaradan bir Fərmandır. Bu prosesdən həm vətəndaş, həm də banklar qazanır. Atılan bu addımı banklarla vətəndaşlar arasında qarşılıqlı etimadın bərpa olunması kimi də qiymətləndirmək olar. Vətəndaşlarımız, bir daha gördülər ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır. Hər hansı bir fors-major situasiya yaranarsa, dövlət onların problemlərini həll etməyə qadirdir. Bunun üçün Azərbaycan Prezidentinin siyasi iradəsi var. Hesab edirəm ki, 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən də, problemli kreditlərin həlli öz miqyasına və əhatə dairəsinə görə, sözün əsl mənasında, inqilabi addımlardır.

Bizr sözlə, mövcud faktlar, bir daha təsdiq edir ki, Prezident İlham Əliyev Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirləri davam etdirir. Əhalinin sosial təminatı sahəsində bütün lazımi tədbirlərin görülməsi isə, heç şübhəsiz, Azərbaycanda əhalinin həyat şəraitinin yüksəldilməsi istiqamətində müntəzəm addımların atılmasını bir daha sübut edir.

# “Əli Kərimli bizim nəsli gözdən salır”

## Nuhəli Kərimov: “Əli Kərimli ilə qohum olduğumuza görə xəcalət çəkirik”

***- Nuhəli müəllim, bəzi müxalifət partiyalarının sədrləri, o cümlədən sizin əminiz oğlu AXCP sədri Əli Kərimli müxtəlif təxribatlarla gündəmə gəlməyə, diqqət mərkəzinə çevrilməyə çalışırlar. Kərimli nəsilin ağsaqqalı kimi bu, sizi narahat etmir ki?***

- Əli Kərimliyə qarşı çox əsəbiyəm. Onun bugünkü fəaliyyətini tənqid edir və bəyan etmək istəyirəm ki, Əlinin bəd əməllərinin bizim Kərimov nəsilinə heç bir aidiyyatı yoxdur. Biz dövlətə, Prezidentimizə sadiqiq. Bugünkü gündə respublikamızda güclü təməllər üzərində qurulmuş ictimai-siyasi sabitlik mövcuddur. Ə.Kərimlinin fəaliyyətində ancaq ölkəmizdəki, ictimai-siyasi sabitliyi pozmaq cəhdləri müşahidə olunur. Bu da, nəinki mənim, eləcə də, Ə.Kərimlinin yaxın qohumlarının yaşadığı Azadkənd kəndində insaların etirazına səbəb olub. Biz Əlinin pozuculuğa cəhdlərini dəfələrlə müaşhidə etmişik. Bu baxımdan da, haqlı olaraq, Azərbaycan cəmiyyəti onu qınayıb, hətta biz Kərimovlar nəsli onun evinin qarşısında etiraz aksiyası keçirdik. Təəssüf ki, Ə.Kərimli ictimai qınaqdan nəticə çıxarmadı. Bu da, onun xarici maraqlı dairələrdən maddi və mənəvi cəhətdən asılı olduğunu göstərir. Xalq tərəfindən onun keçmiş fəaliyyəti və bugünkü təxribatçı əməlləri pislənilir. Xalq tərəfindən dəstəyini tapa bilmədiyi üçün başlayıb cürbəcür təxribat tipli hərəkətlərə əl atmağa. Bununla, o, beynəlxalq təşkilatlardan özünə dəstək qazanmağa çalışır. Guya bu müxalifət lideridir. Əslində, o, toyuq fermasına rəhbərlik etmək və oranı idarə etmək imkanına da malik deyil. Bugünükü gündə bizim xalqımız və dövlətimiz üçün sabitlik mühiti vacib məsələdir. Belə bir məqamda Ə.Kərimlinin tez-tez mitinq çağırışı etməsi, cürbəcür təxribatlara əl atması ictimaiyyət arasında qəzəblə qarşılanır. Onun cəzalandırılması vacibdir. Hüquq-mühafizə orqanlarından ona qarşı ciddi tədbirlərin göstməsini istəyirik.

***- Ə.Kərimlinin əməllərindən yaxın qohumları geniş məlumata malikdirlərmi?***

- Bizim kənd ölkəmizdə gedən istimai-siyasi proseslərdə hər zaman fəal olub. Seçkilərdə hamılıqla Ulu Öndər Heydər Əliyev siyasətinə - Cənab İlham Əliyevin Prezident seçilməsinə, Onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının qələbə qazanmasına səs verməklə bunu nümayiş etdirmişik. Ə.Kərimlinin isə bacı-qardaş, əmi-dayı arasında heç bir hörməti yoxdur. Ona nifrət edirik. Məlum faktdır ki, uzaq yerdə yaşayan insan doğulduğu evinə gələndə onu qarşılayıb, hörmət- izzət göstərələr. Ə.Kərimli isə bu mələlərdən tamamilə təcrid olunub. Nəinki kənd camaatı, heç qohumları da onunla görüşmək istəmirlər. Yaxın qohumlar müəyyən variantlarla ona qarşı öz etirazlarını bildirirlər. Bunlardan Ə.Kərimli nəticə çıxarmalıdır. Xalq artıq onların apardığı bu siyasi fəaliyyətdən bezib, narazıdır və onları qəbul etmir. Mən Kərimovlar nəslinin ağsaqqalıyam, bir ziyalılıyam. Bugünkü gündə Ə.Kərimlinin səhv hərəkətləri təkcə ona aid deyil, bu, bizim qohumlara, bizim ünvanımıza da gəlib çatır, əlbəttə, bu, bizə pis təsir edir. Onun törətdiyi əməllər, terrorçuya xas siyasət yürütməsi bizi narahat edir. Biz dərk edirik, bu baxımdan, nəslimiz də Azərbaycan xalqı qarşısında qınaq obyektinə çevrilirik. Bunu başa düşür, dərk edirik, anlayırıq ki, Ə.Kərimli bizim nəsli gözdən salır. Azərbaycanda əldə olunan sosial-iqtisadi uğurları onun kimilər görmək istəmir.



**Müsahibimiz AXCP sədri Əli Kərimlinin əmisi oğlu, “Azərbaycan fermeri” qəzetinin baş redaktoru Nuhəli Kərimovdur**

Fakt isə budur ki, ölkə başçısı İlham Əliyev respublikamızda uğurlu daxili və xarici siyasət həyata keçirir, xalqın istəyinə uyğun fəraman və sərəncamlar imzalayır. Apardığı islahatlar, həyata keçirdiyi siyasət və verdiyi qərarlar ümumxalq marağına xidmət edir.

***- Bir ara qohumalar yığışıb, Bakıya gəlmək və Ə.Kərimlini kəndə aparmaq istəmişdiniz. Məsələ nə yerdə qaldı?***

- Biz bir dəfə Ə.Kərimlinin yaxın qohumları belə qənaətə gəldik ki, ona öz etirazımızı bidirək. Biz 50-yə yaxın Kərimovlar nəslinin nümayəndəsi onun evinin qarşısında aksiya da keçirdik. Hətta xəbər göndərdik ki, əməllərini dayandır və kəndə qayıt. Amma gəlmədi... Biz onu siyasətçi kimi, tanımırıq. Çünki apardığı siyasi fəaliyyət, ancaq erməni maraqlarına xidmət edir. Hesab edirik ki, belə mənasız hərəkətlər etməkdənsə, kəndə gəlib səmərəli işlə məşğul olsun, bacardığı bir işin qulpundan yapışın. Pambıq əksin, taxıl becərsin, qoyunçuluqla və maladarlıqla məşğul olsun.

***- Əli Kərimli həm də, xaricdəki “söyüş qrupu”nu Azərbaycana qarşı təhqiramiz fikirlərlə çıxış etməyə təhrik edir. Xəbəriniz varmı?***

- Bəli, btün bunlardan xəbərdarıq. Bu, tamam uğursuz bir siyasətdir, əhəmiyyətsiz bir fəaliyyətdir ki, Ə.Kərimli onu həyata keçirir. Bilirsiniz, böyük riyaziyyat alimi var, Nyuton. Onun belə bir qanunu var, təsir əks-təsirə bərabərdir. Hətta mən onun düsturun da deyə bilərəm ki, F bərabərdir mənfi F1-ə. Yəni hər bir insan özü nə deyirsə nə danışırsa, şübhəsiz ki, Nyutonun dediyi qanun kimi onun təsiri-əksi də var. Xarici dövlətlərdə oturub şərəfsiz ifadələr səsləndirirlər. Bunlar dərk etməlidirlər ki, əgər onu bir nəfər deyirsə, Azərbaycanda onu mənfi qarşılayan insanların böyük əksəriyyəti onlara qaytarır. Bu, bizim nəyimizə lazımdır? Bu təhqir və söyüşlərin bir ucu da gəlib çıxır elə Ə.Kərimlinin özünə. Bu da çox əskik, şərəfsiz, bizim ünvanımıza ləkə gətirən bilən bir siyasi fəaliyyətdir. Bu, yolverilməzdir və təqdir olunası fəaliyyət növü deyil.

***- Faransada yaşayan Vidadi İsgəndərli adlı şəxs belə bir fikir səsləndirib ki, əgər Dağlıq Qarabağda müharibə başlayarsa, o, slahlını ernmənilərə deyil, Azərbaycan insanlarına qarşı yönələcək.***

- Fransa dövləti və hökuməti ermənilər və ermənipərəst qüvvələrin geniş surətdə cəmləşdikləri bir məkandır. Şərəfsiz fikirlər səsləndirən insanlarda orada məskunlaşılar. Bunların hamısı bir-biri ilə əlaqəlidir. Səhərdən-axşama qədər sosial şəbəkələdə ağızlarına nə gəldi, danışırlar. Bu adam bir yerdə işləmir, bunun gəliri yoxdur, bu, haradan maliyyələşir? Şübhəsiz ki, ermənipərəst qüvvələr bunlara maliyyə dəstəyi göstərir. Maliyyə dəstəyinin arxasında da dayanan məqsəd bizim dövlətimizi, xalqımızı, milli mentaritetimizi aşağılamağa yönəldilir, xalqımızın imicinə zərbə vurmaq cəhdi göstərilir. Bunlar həmin ermənipərəst qüvvələrdən maliyyələşmiş insanlardır, bunlara onlar himayədarlıq edirlər. Dağlıq Qarabağ uğurunda müharibə başlayarsa, şübhəsiz ki, V.İsgəndərli ermənilərdən maliyyələşdiyi üçün onlara qarşı silah işlətməyəcək. Necə ki, milli melitatinmizə zərbələr vurur, əlbəttə ki, müharibə başlayarsa, o zaman da bizə qarşı silah tuşlayacaq. Düşünürəm ki, bəlkə də Azərbaycanda siyasi məsələlərlə bağlı düşünülüb, uzaqgörənlik baxımından bu məsələləri araşdırıb təhlil edənin ən zəifi mənəm. V.İsgəndərli kimilər analiz edilib, müəyinə edilsə, onların əsl azərbaycanlı olmadıqdarı aşkarlanar. Pula görə, millətimizə, dövlətimizə, xalqımıza, qarşı xoşagəlməz ifadələr işlədirlər. Bu da, şübhəsiz, kimlərinsə tərəfindən göstərilən təsirin nəticəsidir. Deyim ki, orada olanlardan bir də, İnqilab Kərimovdur. Mənim əmimoğludur, elə Əli Kərimovunda əmisioğludur. Onun atası - Allah rəhmət eləsin, Qüdrət kişi yaxşı ağsaqqal olub, gözəl insan idi. Amma İnqilab Kərimov Əli Kərimlinin təsiri altındadır. AXCP-nin üzvüdür, gedib, xaricdə “fəaliyyət” göstərir. Görürsən, bütün bağlantılar ən axırda Əli Kərimliyə gedib çıxır. Narahat oluruq, niyə? Çünki İnqilab Kərimov kimisə təhqir edirsə, onu da qayıdıb təhqi edirlər, bu da qayıdıb mənə çatır, mənin qohumlarıma çatır. İnqilab Kərimovu o qədər də qınamıram. Qınadığım odur ki, Əli Kərimli belə bir şərəfsiz metoddan istifadə etməklə, siyasi kampaniya yaratmaqla Kərimovlar nəsilinə başıaşağılıq gəririr. Biz bunu qəbul etmirik, ona görə də, biz Ə.Kərimlinin siyasətdən getməsini təklifini edirik. Çünki onun əməllərində, fəaliyyətində ancaq və ancaq bizi təhqir etdirmək, ölkəmizin ictimai-siyasi sabitliyini pozmaq maraqları dayanır.

**GÜLYANƏ**

# “Bakcell”in 4G şəbəkəsi artıq bütün ölkə ərazisini əhatə etməkdədir

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti artıq ölkənin bütün bölgələrində yüksək keyfiyyətli 4G xidmətlərini təqdim edir. SİA “Bakcell” Mobil Operatorunun məlumatına istinadən xəbər verir ki, artıq Bakı, Abşeron yarımadası və Azərbaycanın bütün şəhər və rayonlarında (Naxçıvan Muxtar Respublikası və işğal olunmuş ərazilər istisna olmaqla) yaşayan Bakcell abunəçiləri şirkətin təqdim etdiyi yüksək sürətli mobil İnternet xidmətlərindən yararlana bilirlər.***

Qeyd edək ki, 1700-dən artıq 4G stansiyası sayəsində Bakcell şirkəti əhatə dairəsi və şəbəkə tutumu baxımından ölkədə ən böyük LTE şəbəkəsinə malikdir.

Bakcell 2018-ci il ərzində mobil internet xidmətlərini ölkənin regionlarına doğru genişləndirilməyə davam edib. Şəbəkəyə yatırılan iri həcmli sərmayələr nəticəsində keçən il 300-ü regionlarda olmaqla 800-dən artıq 4G stansiyası quraşdırılıb. İstifadəçilər üçün ən yüksək keyfiyyətin təmin olunması istiqamətində aparılan işlərin davamı olaraq bu il ərzində ölkə ərazisində 750-dən çox 4G baza stansiyası istifadəyə veriləcək.

Bakcell öz şəbəkəsinin etibarlılığını və sabitliyini təmin etmək məqsədilə müntəzəm olaraq şəbəkə infrastrukturunu təkmilləşdirir.




“Bakcell şirkəti bazarda lider mövqeyini daha da gücləndirmək və xidmətlərin keyfiyyətini daha da artırmaq məqsədilə Azərbaycanın ən keyfiyyətli 4G şəbəkəsinə iri həcmli sərmayələr yatırır. Məqsədimiz odur ki, 4G xidmətlərimiz bütün ölkə ərazisində təmin olunsun. Buna görə də şəbəkəmizin əhatə dairəsi və keyfiyyətinin artırılmasına yönəlmiş işlər davam etdiriləcək”, deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

“Bakcell”in təmin etdiyi keyfiyyət və ən yüksək mobil İnternet sürətinə yerli və beynəlxalq səviyyədə yüksək qiymət verilir. Belə ki, 2018-ci ildə Bakcell “Azərbaycanın ən sürətli mobil şəbəkəsi” adına layiq görülüb. Dünyada tanınmış “Ookla” şirkəti tərəfindən təsdiq edilib ki, Bakcell şəbəkəsi ölkədə ən yüksək orta yükləmə sürəti və ən aşağı gecikmə müddətinə (latency time) malikdir. 2017-ci ildə isə mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan “P3 Communications” şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb (“Best in Test”).

Bakcell özünün yüksək keyfiyyətli mobil şəbəkəsinin genişləndirilməsi və modenrnizasiyasına yönəlmiş iri-miqyaslı tədbirləri davam etdirəcək.

# Əli Kərimli və Mehman Əliyev Əlikram Hümbətovun "bəyanat"ını tirajlayırlar

*Və ya əlahəzrət faktlar hər şeyi öz çılpaqlığı ilə ortaya qoydu!*

***Mehman Əliyevin rəhbərlik etdiyi "Turan" İnformasiya Agentliyinin rus versiyasının - "contact.az"ın daha bir gizlini ortaya çıxıb. Uzun müddətdir özünü separatçı "Talış-Muğan Respublikası"nın "lideri" kimi təqdim edən, dəfələrlə işğalçı Ermənistanda Azərbaycan dövləti və xalqı əleyhinə "simpoziumlar", "konfranslar" keçirib, "bəyanatlar" yayan Əlikram Hümbətov bu dəfə Ermənistanın "Iragir.am" saytı vasitəsi ilə separatçı fikirlərini ictimailəşdirib. "Bəyanat"ında bölücü yandaşı Fəxrəddin Abbaszadənin həbsindən tutmuş, digər məsələlərə qədər həyasızlıq nümayiş etdirən Ə.Hümbətov yenidən aşkar düşmənçiliyini sərgiləyib.***


Ermənistanda Əlikram Hümbətovun bəyanatı yayılıb

Niderlandda yaşayan azərbaycanlı siyasi mühacir Əlikram Hümbətov "Talış Milli Hərəkatının bəyanatı" adlı məktub yayıb. Sənədin altında onun öz imzasından başqa imza yoxdur. Ə.Hümbətovun məktubu Yerevanın Lragir.am saytında dərc edilib.

### Vaxtilə Leyla Yunus da "contact.az" vasitəsi ilə Azərbaycan əleyhinə erməni dəyirmanına su töküb

Məsələ yalnız M.Əliyevdə yaxud Ə.Hümbətovda deyil. Eyni zamanda, məsələ onun bu "bəyanat"ının hansı sayt vasitəsilə Azərbaycan ictimai rəyinə sətiraltı olaraq təqdim olunmasında da deyil. Çünki "contact.az"da bir zamanlar açıq-aşkar ermənipərəstlik edən "hüquq müdafiəçisi" Leyla Yunusun Azərbaycan dövlətinin maraqlarına qarşı erməni dəyirmanına su tökməsi halları dəfələrlə müşahidə edilib. Yəni bilavasitə "Turan"ın rəhbəri M.Hüseynovun nəzarətində olan "contact.az" öz ənənəsinə sadiq qalaraq, istər sətiraltı, istsərsə də dolayı yollarla Azərbaycanın dövlətçilik maraqlarına qarşı xəyanətkar və satqınçılıq fəaliyyətini davam etdirir.

### AXCP sədri bu işdə öz marağını gizlətməyib

Diqqəti cəlb edən əsas məqam budur ki, Ə.Hümbətovun "bəyanat"ını AXCP sədri Əli Kərimlinin nəzarətində olan "Azadlıq" qəzetinin FB səhifəsi, məhz "contact.az"a istinadən tirajlayıb. Daha dəqiq desək, AXCP sədri bu işdə öz marağını gizlətməyib. Çünki onun üçün dövlət marağı, xalqın marağı deyil, yalnız öz şəxsi maraqları dayanır. Nədir ki, separatçı Ə.Hümbətovun "bəyanat"ını yayan adıçəkilən saytda "Azərbaycanlı siyasi mühacir" ifadəsi yazılıb. Yəni bu məlumatın ilk cümləsində deyilir: "Niderlandda yaşayan azərbaycanlı siyasi mühacir Əlikram Hümbətov "Talış Milli Hərəkatının bəyanatı" adlı məktub yayıb".

### Ortaya hansı faktlar çıxır?

1. "Niderlandda yaşayan azərbaycanlı siysi mühacir" deyərkən, istər Ə.Kərimli, istərsə də Mehman Əliyev sətiraltı manipulyasiya edirlər.

2. Bu manipulyasiya ondan ibarətdir ki, Əlikram Hümbətov Azərbaycan vətəndaşı deyil və onun separatçılıq iddiaları bu adı onun üzərində ömürlük silib!

3. Nə AXCP sədri, nə də "Turan" İA-nın rəhbəri Əlikram Hümbətovu nə xəyanətkar, nə də ki, milli satqın adlandırmayıblar, lakin "azərbaycanlı siyasi mühacir" adını dərhal tirajlayaraq, bu vasitəylə separartçıya, onun işğalçı ölkə mediasındakı fəaliyyətinə dəstək göstəriblər!

Bu faktlar isə, növbəti dəfə sübut edir ki, biri Azərbaycan mediasının, digəri isə müxalifətinin üz qaraları olaraq, öz çirkin əməllərini davam etdirirlər. Əbəs deyil ki, ölkənin sağlam düşüncəli ictimai rəyi bənzər satqınçılıqları dəfələrlə bu fərdlərin fəaliyyətlərində müşahidə edib. Lakin söz yox ki, bunların da, nə zamansa Azərbaycan xalqı və dövləti qarşısında cavab verəcəkləri gün elə də uzaqda deyil. Hətta çox yaxındadır...

***Rövşən NURƏDDİNOĞLU***

# Ermənistanda hökuməti tənqid edən bloqeri zibil konteynerinə atmaq istəyiblər



Ermənistanda hökuməti tənqid edən bloqeri zibil konteynerinə atmaq istəyiblər. "Facebook" sosial şəbəkəsində Nikol Paşinyanın siyasətini və onun tərəfdarlarını tənqid edən "Adekvad" səhifəsində videomateriallar yerləşdirən bloqer Narek Malyan hökumətin himayə etdiyi "Restart" hərəkatının üzvlərinin hücumuna məruz qalıb. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, bloqer Malyan və onun həmkarı Artur Danielyan Yerevan Dövlət Universitetinin təcrübəli rektorunu nəyin bahasına olursa-olsun vəzifəsindən uzaqlaşdırmaq istəyən Paşinyan hökumətini mütəmadi olaraq sərt tənqid ediblər. Hökumətin tərəfdarlarından ibarət olan "Restart" üzvləri bloqerə qarşı törətdikləri xuliqanlığı inkar etməyərək bəyan ediblər ki, "zibil, məhz zibil konteynerində olmalıdır".

Hökumətin himayə etdiyi xuliqanların bu hərəkətinin qarşısını post-patrul xidmətinin əməkdaşları alıblar. Faktla bağlı polis tərəfindən araşdırma aparılır. Bununla yanaşı, himayədarlarına arxalanan "Restart" üzvləri bloqerin zibil konteynerinə atılması cəhdinin videomaterialını sosial şəbəkələrdə yerləşdiriblər. Sözügedən bloqerlər 2018-ci ilin oktyabrında da Maralik şəhərindəki aksiya zamanı hökumət tərəfdarlarının hücumuna məruz qalmışdılar.

# Azərbaycanda ikinci Çərşənbə - Od Çərşənbəsi qeyd olunur

***Xalqın tarixi ilə bağlı aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu öz maddi və mənəvi xəzinəsini qoruyub-saxlaya bilib. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq, bizim əsrə, yəni bugünkü yüzilliyə qədər gəlib çatmışdır.***



Hər il bəzi müsəlman dünyasının böyük həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü və adət-ənənələrini özündə yaşadan gündür. Bu bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş Su, Od, Yel və Torpaq Çərşənbələri qeyd olunur. Çərşənbələr Novruz bayramının əvəzolunmaz atributlarındandır. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır. Hər Çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilir.

Bu gün xalqımız Boz ayda ikinci Çərşənbəni - Od Çərşənbəsini qeyd edir. Bu Çərşənbə qədim insanların Günəşə, Oda olan inamından irəli gəlir. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar. Günəş insanlara sevinc gətirdiyi kimi, od da sonsuz fərəh və nikbinlik gətirir. Od - yaşamaq, yaratmaq rəmzidir.

Od Çərşənbəsinə bəzən xalq arasında Xəbərçi Çərşənbə, Üskü Çərşənbə, Addı Çərşənbə, Üzkü Çərşənbə də deyirlər. İnanclara görə, odu günəşlə, işıqla və gündüzlə əlaqələndirirlər. Bu Çərşənbədə oda sitayiş edilir və onun şərəfinə şənliklər təşkil olunur. Günəş istisini arzulayan ulu babalarımız böyük bir tonqal qalayıb günəşin çıxmasını gözləyər, odun şərəfinə nəğmələr söyləyərdilər. Atəşpərəst etiqadlarına görə, "müqəddəs od"u insana ağac vermişdi. Ulu babalarımız bunun şərəfinə şənliklər keçirərdilər. İnsan bədənində və təbiətin özündə qorunub-saxlanan istilik də müqəddəs hesab olunurdu. Elə bu istiliyi qoruyub-saxlamaq şərəfinə şənliklər yaranmışdı. Od ilə istinin əsas mənbəyi isə Günəş hesab olunurdu. Onu çağıran Qodu nəğmələri xalq arasında geniş yayılar, günəşin istiliyi şərəfinə Azərkan şənlikləri düzənlənirdi.

İndi şər qarışanda hər həyətdə, yaxud məhəllədə tonqallar yandırılır və tonqal başına toplananların hamısı növbə ilə 3 dəfə alovun üstündən tullanırlar. Odla bağlı xeyli atalar sözü yaranıb: "Od imandır", "Od düşdüyü yeri yandırar" və s. İnanclara görə, ocağa yaxınlaşanda salam verərlər, od hisli olarsa, uzaqdan qonaq gələcəyinə işarədir. Əgər ocaq yananda səslənirsə, deməli, kimsə səndən danışır. Od Çərşənbəsi günü, gün doğanda dünyaya gələn uşaq göyçək və pəhləvan olar. Oda sevgi və inam insanlarda o qədər güclü olub ki, hələ qədim dövrlərdən ona and içiblər. Alqış və qarğışlarda belə, Odu köməyə çağırıblar. Məsələn, "Od haqqı", "Oda düşəsən," "Ocağın odlu olsun", "Ocağın qazan görməsin" və s.

Ümumiyyətlə, bütün Çərşənbələrdə Od aparıcı motivdir. Bu, Od amilinin Novruzun mahiyyətində durmasına ən gözəl sübutdur.

Od Çərşənbəniz MÜBARƏK!

***Zümrüd BAYRAMOVA***

## Əliqismət Lalayev: "Biz yaradıcı insanların Prezident İlham Əliyev kimi böyük dayağı var"



Prezident İlham Əliyevin mədəniyyət və incəsənət xadimlərinə bugünkü diqqət və qayğısı ulu öndər Heydər Əliyevin yoludur. Ulu Öndər mədəniyyət və incəsənət xadimlərinə diqqət və qayğısını heç vaxt əsirgəməyib. Həmişə aktyorlarla, rəssamlarla, rejissorlarla və digər yaradıcı insanlarla görüşərək problemləri ilə maraqlanıb. Biz də həmişə fəxr etmişik ki, bizim belə bir Prezidentimiz var. Başqa ölkələrdən olan həmkarlarımızla görüşlərdə onlar həmişə bizə həsəd aparıblar. İllər öncə deyirdilər ki, Heydər Əliyev kimi rəhbəriniz var və bu gün də həsəd aparırlar ki, bizim İlham Əliyev kimi böyük bir dayağımız var.

Bu sözləri AZƏRTAC-a Musiqili Teatrın direktoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayev deyib. O bildirib ki, insan kiməsə arxalanmasa, kimsə ona dayaq olmasa, çox zəif görünər. Yaradıcı insanlara bu, xüsusən vacibdir. Bizim Musiqili Teatr kimi gözəl bir binamız var. Burada tamaşalarla yanaşı, müxtəlif tədbirlər, beynəlxalq konfranslar keçirilir. Dünyanın bir çox ölkələrindən gələn qonaqlar bu binanı görəndə valeh olurlar. Biz də çox qürurla deyirik ki, belə gözəl binanı təmir edərək yaradıcı insanlara Prezidentimiz bəxş edib.

## Problemli kreditlərlə bağlı Maliyyə Nazirliyində "Qaynar xətt" yaradılacaq



Maliyyə Nazirliyində vətəndaşların problemli kreditlərlə bağlı müraciətlərini cavablandırmaq üçün "Qaynar xətt" yaradılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə maliyyə naziri Samir Şərifov jurnalistlərə müsahibəsində deyib.

Nazir qeyd edib ki, Maliyyə Nazirliyinin mövcud internet portalında bu məsələ ilə bağlı xüsusi bölmə yaradılıb. Prezidentin Fərmanında ödənişlərlə məşğul olmaq Maliyyə Nazirliyinə tapşırılıb və təşkilatlar qarşısında 45 gün müddət qoyulub. Bu 45 gün müddət başa çatdıqdan sonra nazirliyin sözügedən məsələ ilə bağlı "Qaynar xətt"i yaradılacaq. Vətəndaşlar öz sual və müraciətlərinə bu "Qaynar xətt"ə zəng edərək cavab tapa bilərlər.

# Prezident İlham Əliyevin davamlı, sistemli islahatları Azərbaycanın iqtisadi qüdrətini və əhalinin sosial rifahını daha da yüksəldib

*Milli Məclisin deputatı Bəxtiyar Sadıqovun yap.org.az-a müsahibəsi*

***- Bəxtiyar müəllim, 2019-cu ilin ötən dövrü ölkəmizdə mühüm ictimai-siyasi hadisələrlə zəngindir. Bunlardan biri də Prezident İlham Əliyevin şəhid ailələrinin üzvləri ilə görüşüdür. Bu görüş cəmiyyətə hansı mesajı verdi, ictimaiyyət tərəfindən necə qarşılandı?***

- Bu görüş Azərbaycanda ictimaiyyətin bütün təbəqələri tərəfindən böyük rəğbətlə qarşılandı. Cəmiyyətimizin vətənpərvərlik hissinin daha da güclənməsinə xidmət etdi. Şəhid ailələrinin timsalında hər kəs bir daha əmin oldu ki, güclü Azəbaycan dövləti kimi dayağı var.

Dövlət, xalq onda böyük sayılır ki, onun uğrunda canından keçənləri olur. Bu mənada xalqımızın başını uca tutmağa, qürur hissi keçirməyə tam mənəvi haqqı var. Biz sovet hakimiyyətinin çətiri altında birləşdirilmiş digər xalqlardan fərqli olaraq azadlığımızı rahatlıqla əldə etmədik. Bu yol xalqımız üçün hamar olmadı, enişlərdən-yoxuşlardan, dolanbaclardan keçdik, Torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə minlərlə vətən övladı silaha sarıldı, qan tökdülər, canlarını fəda etdilər.

Şəhidlərimizin canlarını qurban verdikiləri Azərbaycan indi sayılıb-seçilən, müstəqil siyasət yürüdən, heç bir kənar qüvvədən asılı olmayan dövlətdir. Şəhidlərin vaxtilə sıralarında vuruşduqları ordu isə indi dünyanın ən qüdrətli silahlı qüvvələri sırasında yer alıb.

Şəhidlərimizin ruhu həm də ona görə rahatdır ki, əmanət qoyub getdikləri doğmalarının - valideynlərinin, övladlarının yanında qüdrətli Azərbaycan dövləti var. Şəhidlərin xatirəsi bizə nə qədər əzizdirsə, onların əzizlərinin, ailələrinin sosial rifahı, mənzil-məişət şəraiti də bir o qədər dövlətimiz üçün əzizdir və daim diqqət mərkəzində saxlanılır. Bu sahədə ən gözəl nümunələri isə Azərbaycan Prezidenti cənab İlham Əliyev ortaya qoyur.

Hələ ötən ilin aprelində seçkilərdə xalqın birmənalı dəstəyini qazanaraq Prezident seçilən cənab İlham Əliyevin ilk fərmanının məhz şəhid ailələri ilə bağlı olması dövlət başçısının şəhidlərin əziz xatirəsinə dərin ehtiramının və şəhid ailələrinə qayğısının təzahürüdür. 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmana əsasən şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutuldu. Bu fərman həmin ailələrin sosial müdafiəsinin yaxşılaşdırılmasının dövlət başçısının sosial siyasətinin başlıca məqsədlərindən biri olduğunu təsdiq etdi, ictimaiyyət tərəfindən böyük rəğbət və məmnunluqla qarşılandı.

Bu il yanvar ayının 28-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri ilə görüşü və 11 min manat məbləğində birdəfəlik ödəmə alacaq vətəndaşların sayının artırılması barədə yeni fərmanı cənab İlham Əliyevin böyüklüyünü, şəhidlərimizə və onların ailə üzvlərinə olan ehtiramını bir daha sübut etdi. Bu görüş həmin ailələrə yüksək səviyyədə diqqət və qayğının növbəti sübutu kimi Azərbaycan ictimaiyyəti tərəfindən rəğbət və minnətdarlıqla qarşılandı.



Qeyd edim ki, ölkədə şəhid ailələrinin, o cümlədən döyüşlərdə əlil olmuş şəxslərin sosial rifahının daha da yaxşılaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirilir. Belə ki, indiyədək bu statusu daşıyan vətəndaşlara dövlət tərəfindən 6 min 654 mənzil verilib. Təqdirəlayiqdir ki, təkcə ötən il şəhid ailələrinə və müharibə əlillərinə planlaşdırıldığından 3 dəfə artıq - 626 ev verilib. Bu il həmin vətəndaşlara təxminən 800 mənzil verilməsi nəzərdə tutulur.

Şəhid ailələrinə verilən Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün məbləği də ötən dövrdə mütəmadi olaraq artırılıb. Sonuncu dəfə yanvarın 30-da Prezident İlham Əliyev bu barədə müvafiq fərmanı imzalayıb. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında" fərmana əsasən, şəhid ailələrinə verilən Prezident təqaüdünün aylıq məbləği 58 manat artırılaraq 300 manat müəyyən edildi.

Şəhidlər bizim müqəddəs and yerimiz, qürur mənbəyimizdir. Onlar heç vaxt unudulmayacaq, həmişə minnətdarlıq duyğuları ilə yada salınacaq, xatirələrinə dərin ehtiram bəslənləcək. Bu, indi də belədir, sabah da belə olacaq. Bu mənada Prezident İlham Əliyevin şəhid ailələri ilə səmimi görüşü şəhidlərin əziz xatirəsinə ehtiramın böyük nümunəsi idi. Bununla, həm də bir həqiqət növbəti dəfə öz təsdiqini tapdı ki, Prezident İlham Əliyevin sayəsində şəhid ailələri haqlı olaraq ən yüksək dövlət qayğısı ilə əhatə olunublar.

***- Ötən ay Prezident İlham Əliyev ardıcıl olaraq sosial məsələləri əhatə edən sərəncamlar imzaladı. Bu barədə fikirlərinizi bilmək maraqlı olardı.***

- Dövlət də ailə kimidir. Hər bir ailənin öz gəliri olur və ailə həmin gəlirə uyğun xərclərini müəyyən edir. Yəni, ailənin kommunal xərcləri, o cümlədən hər bir üzvünün qida, geyim və digər ehtiyacları var. Ailə öz ehtiyaclarına uyğun olaraq xərclərini bölür və hissə-hissə qayğılarını yoluna qoyur. Dövlət də belədir, nə qazanırsa onu xərcləyir. Ayrı-ayrı sahələrin xərclərinin ödənilməsi üçün dövlət əvvəlcə o pulu tapıb büdcəyə cəlb etməli, sonra istifadə etməlidir. Bu mənada Azərbaycan iqtidarının daim öz vətəndaşının qayğısına qaldığını, hər bir sahənin inkişafı üçün lazımi qədər vəsait ayırdığını görməmək mümkün deyil. İlk növbədə, həmişə çalışıb ki, gəlirindən, qazancından vətəndaşların sosial rifahının yüksəldilməsinə sistemli şəkildə pul ayırsın.

Biz həmişə dövlət büdcəsini müzakirə edərkən onu sosialyönümlü büdcə adlandırırıq. Bu o deməkdir ki, ilk növbədə, sosial ehtiyacların daha dolğun ödənilməsi və vətəndaşların rifahının yüksəldilməsini əsas məqsəd kimi qarşıya qoymuşuq.

Amma dövlətin inkişafı üçün də xərclər tələb olunur. Bildiyiniz kimi, indiyədək Azərbaycan qlobal enerji layihələrinin həyata keçirilməsinə sərmayələr yatırıb. Çünki ulu öndər Heydər Əliyev yaxşı bilirdi ki, enerji layihələrinə çəkilən xərclər gələcəkdə qazanc şəklində dövlətə qayıdacaq. Bu siyasəti layiqincə davam etdirən Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun, "Cənub qaz dəhlizi"nin çəkilməsinə nail oldu. Çünki bunların hər biri Azərbaycanın inkişafına, beynəlxalq mövqelərinin möhkəmlənməsinə, imicinin yüksəlməsinə və həm də əhalinin sosial rifahının daha da yaxşılaşmasına xidmət edir.

Lakin Azərbaycan iqtidarı bununla kifayətlənmir. Son 15 ildə ölkədə regionların tarazlı inkişafına xidmət edən 3 dövlət proqramı icra olunub. Bu proqramlar xüsusən qeyri-neft sektorunun inkişafını təmin edib, bütövlükdə Azərbaycan iqtisadiyyatının 3 dəfədən çox artmasına yol açıb. Salınan sənaye parkları, aqroparklar məhz bir məqsədə - inkişafa xidmət edir. İqtisadi inkişafın təmin olunması ilə yanaşı, əhalinin fasiləsiz enerji verilməsi, içməli suya olan tələbatın ödənilməsi, bütün yaşayış məntəqələrinin qazlaşdırılması son 15 ildə ölkədə həyata keçirilən inkişaf siyasətinin prioritetlərini təşkil edib. Bu illərdə yolların yenidən qurulması da diqqət mərkəzində olub. Çünki yol inkişaf deməkdir və bu məqsədlə olduqca vacib layihələr həyata keçirilib. Şərq-Qərb, Şimal-Cənub istiqamətində nəqliyyat dəhlizi yaradılıb. Gediş-gəlişi asanlaşdırmaq üçün bəzi yerlərə, hətta tarix boyu avtomobil yolu olmayan yaşayış məntəqələrinə müasir yollar çəkilib.

Yəni də bütün bunların hər biri külli miqdarda vəsait tələb edir. Lakin bu dövrdə Azərbaycan iqtidarı bütün bu vəzifələrin öhdəsindən inamla gəlib. Hər bir sahəyə lazımi qədər vəsait yönəldilib, iqtisadiyyatın inkişafı təmin olunub. O cümlədən, kənd təsərrüfatının inkişafı təmin olunub, bunun üçün on minlərlə hektar yeni əkin sahəsi becərilməyə cəlb olunub, suvarma üçün yeni su anbarları inşa olunub. Bütün bunlar isə öz növbəsində insanların sosial güzəranının yaxşılaşması deməkdir. Məsələn, yeni açılan müəssisələr, təsərrüfatlar yeni iş yerlərinin yaradılmasına, məşğulluğun təmin olunmasına, yoxsulluğun aradan qaldırılmasına xidmət edir. Görünən odur ki, dövlət həm bu gün vətəndaşının qayğısına qalır, həm sabah, həm də perspektivdə. Ona görə də qarşıya qoyulan məsələlər mərhələ-mərhələ həll olunur.

Onu da qeyd edim ki, Azərbaycanda dövlət başçısı pensiyaların, müavinətlərin artırılması ilə bağlı hər il sərəncamlar verib. Son vaxtlar isə artan maliyyə imkanlarımız əhalinin digər sosial ehtiyaclarının ödənilməsinə yol açır. Təkcə fevral ayında dövlət başçısının imzaladığı sərəncamlar göstərir ki, Azərbaycan iqtidarı artan maliyyə imkanlarından ilk növbədə öz vətəndaşının sosial rifahının gücləndirilməsi üçün istifadə edir.

Minimum əməkhaqqının məbləğinin 50 manat artırılaraq 180 manata çatdırılması, əmək pensiyalarının minimum məbləğinin 38 faiz artırılaraq 116 manatdan 160 manata çatdırılması, təqribən 100 minə yaxın tələbənin təqaüdünün artırılması, Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata qaldırılması, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 16 min vahid artırılması, problemli kreditlərlə bağlı məsələnin öz həllini tapması ölkədə həyata keçirilən təkmil və ardıcıl sosial siyasətin ayrı-ayrı nümunələridir.

Prezident İlham Əliyevin fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında fərmanı isə sosial sahədə atılan addımların davamı kimi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Bu onu göstərir ki, respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının qaytarılmasına da dövlət dəstəyi göstərilməsi üçün şərait yaratmışdır.

Bütövlükdə, bütün bunlar təsdiqləyir ki, dövlət öz vətəndaşının sosial rifahı üçün bütün lazımlı addımlar atır. Amma əvvəldə qeyd etdiyim kimi, bunlara nail olmaq üçün, ilk növbədə, iqtisadiyyatın, gəlir gətirən sahələrin inkişafına nail olmaq lazımdır. Təbii ki, maliyyə imkanlarımız artdıqca bu sahədə növbəti addımların da şahidi olacağıq.

Bir məqamı da unutmayaq. Hazırda bizim iki vacib problemimiz var ki, onlara daim diqqət yetirməli və lazım olduğu qədər vəsait ayırmalıyıq. Bunun biri çətin şəraitdə yaşayan qaçqın və məcburi köçkünlərin yeni mənzillərlə təmin olunmasıdır. Bunun üçün külli miqdarda vəsait tələb olunur. Artıq indiyədək ölkədə 100-dən artıq yeni qəsəbə salınıb və bu iş davam edir.

İkinci sahə isə ordu quruculuğudur. Çünki Azərbaycan müharibə şəraitindədir və əsas ağrılı problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə biz daim düşməndən güclü olmalıyıq. Güclü Azərbaycan Ordusu isə danışıqlar prosesində ölkəmizin üstünlüyünü təmin edən mühüm amildir. Digər tərəfdən, Ermənistanı sistemli şəkildə silahlandırdıqlarına görə biz silahlanmaya daha çox vəsait ayırmalı və üstünlüyü daim qoruyub saxlamalıyıq.

***- Bəxtiyar müəllim, Azərbaycanın bütün uğurlarını həmişə inkar etmiş dağıdıcı müxalifət sosial məsələlərlə bağlı atılan addımları öz adına çıxmaq istəyir. Bu barədə nə deyə bilərsiniz?***

- Azərbaycanda bütün iqtisadi və sosial təşəbbüslər dövlət başçısı tərəfindən sistemli şəkildə həyata keçirilir. Əgər biz Prezident İlham Əliyevin gördüyü işləri öz adına çıxmaq istəyən Əli Kərimlinin iqtidarda olduğu dövrə nəzər salsaq görərik ki, hətta 1992-ci ildə növbəti ilin dövlət büdcəsi təsdiq olunmadı. Çünki dövlətin büdcəsi boş idi, gəliri yox idi. Əgər Əli Kərimli belə bacarıq sahibidirsə, o zaman niyə ölkəni iqtisadi böhrandan çıxara bilmədilər?

Bu cür boş-boş iddialarla çıxış etmək dağıdıcı müxalifətin köhnə vərdişidir. İkincisi isə mən təəccüblənirəm ki, nə əcəb indiyədək Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərini, Bakı-Tbilisi-Qars dəmir yolu xəttini, "Cənub qaz dəhlizi"ni, ordumuzun dünyanın 50 güclü ordu sırasında yer almasını, qaçqın şəhərciklərinin tikilməsini, 3 peykimizin orbitə göndərilməsini, Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini Əli Kərimli öz adına çıxmayıb?! Nə əcəb, demir ki, biz bu məsələləri qaldırdıq sonra İlham Əliyev etdi. Bəlkə Ələt azad iqtisadi zonasının yaradılması təklifini də Əli Kərimli verib? Bütün bunları Azərbaycan hakimiyyəti edəndə, Prezident İlham Əliyev bu inkişafı təmin edən dövlət proqramlarını təsdiqləyəndə, Azərbaycanı kosmik dövlətə çevirəndə, qlobal enerji və nəqliyyat layihələrinə başlayanda Əli Kərimli hardaydı? Əlbəttə, qrant axtarışında!

Əli Kərimli onsuz da bu cür gülməli iddiaları ilə xalqın qınaq hədəfinə çevrilib. Xalq bu müxalifətin dabbaqda gönünə bələddir. Birillik yarıtmaz iqtidarları ilə xalqa və dövlətə vurduqları yaraları insanlar heç vaxt onlara bağışlamayacaqdır!

# Pirallahıda "Tarix yazan qəhrəmanlar" mövzusunda tədbir keçirilib




***Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı rayonda fəaliyyət göstərən 168 saylı orta məktəbdə Əfqanıstan və Qarabağ veteranlarının iştirakı ilə "Tarix yazan qəhrəmanlar" mövzusunda tədbir keçirib.***

Tədbir Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayıb.

Tədbirdə çıxış edən YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd edib ki, vətənpərvərlik təkcə itirdiyimiz torpaqları geri qaytarmaq istəyi deyil: "Vətənpərvərlik, ilk növbədə, dininə, dilinə, tarixinə, keçmişinə, ədəbiyyatına, musiqisinə hörmət, ətrafdakı insanlara sevgi deməkdir. Vətənə sevgi, məhz vətənpərvərlikdən başlayır. Allaha, valideynlərimizə borclu olduğumuz kimi, vətənə də borcluyuq. Çünki biz bu torpağın üstündə gəzir, bu torpaqda, bu vətəndə yaşayırıq".

"Bəs biz bunu dərk edə bilirikmi? Biz vətəni sevirikmi? Biz vətənpərvərikmi?" suallarını cavablandıran YAP Pirallahı rayon təşkilatının sədri cavab olaraq qeyd edib ki, Azərbaycan gəncliyi inkişaf edir, gənclərimiz bütün sahələrdə nailiyyətlər qazanırlar: "Azərbaycan gənclərinin uğurlu sədaları xarici ölkələrdən gəlir. İstər təhsil sahəsində, istərsə də idman sahəsində gənclərimiz özlərini doğrultdurlar. Bu, vətənə olan sevgidən, vətənpərvərlikdən yaranır. Minlərlə oğul və qızlarımız vətən uğrunda canlarından keçiblər. Şəhidlik ən uca zirvədir. Vətənpərvərlik böyük hissdir və şəhidlər əsl vətənpərvər insanlardır".

"Bu gün Şəhidlər Xiyabanı ancaq matəm günlərində ziyarət ediləcək bir yer deyil. Uşaqlar, yeniyetmələr və gənclər hər gün buranı ziyarət etməli, torpaqlarımız uğrunda canlarından keçən insanları unutmamalıdırlar" deyən Hikmət Şikarov əlavə edib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan vətəndaşlarının sabaha olan ümidlərini özlərinə qaytardı: "Elmin, səhiyyənin və mədəniyyətin böhranlı vəziyyətdən çıxarılması naminə gərəkli addımlar atdı. Ən başlıcası isə, milli ordumuzun döyüşkən ruhunu özünə qaytarmaq üçün ordunu yenidən qurmağa başladı".



Rayon təşkilatının sədri Prezident İlham Əliyevin son vaxtlar apardığı uğurlu sosial islahatlar barədə də fikirlərini bildirib və qeyd edib ki, bugünədək, 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, 6 000-dən artıq şəhid ailəsinə minik avtomilləri verilib: "Bütün bunlar dövlətimizin və ölkə rəhbərimizin şəhid ailələrinə münasibətinin təzahürüdür. 11 aprel 2018-ci il Prezident seçkilərindən sonra ölkə Prezidenti İlham Əliyevin ilk Fərmanı şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı olub və bu Fərman əsasında 12 minə yaxın şəhid ailəsinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulub. Ölkə Prezidentinin yeni Fərmanına əsasən, bu məbləği alacaq insanların sayı 2 725 nəfər artırılıb".

Əfqanıstan və Qarabağ müharibələrində iştirak edən, eləcə də, bu müharibələrdə şəhid olan insanların da ailələrinə dövlət qayğısının davamlı olduğunu bildirən Hikmət Şikarov qeyd edib ki, bu, dövlətimizin və ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin yürütdüyü siyasətin əsas istiqamətlərindən biridir.

Tədbirdə çıxış edən Azərbaycan-Əfqanıstan Veteranları İctimai Birliyinin üzvü Musa Həsənli, Xocalı Veteran Təşkilatının sədri Qafar Nuriyev, milli qəhrəman Bəxtiyar Allahverdiyev qeyd ediblər ki, Azərbaycan yeniyetmə və gəncləri vətənpərvər ruhunda böyümək, tərbiyə olunmaq üçün daim fəaliyyətdə olmalı, Azərbaycanın daha güclü və qüdrətli olması üçün güclərini əsirgəməməlidirlər. "Bizim hər birimiz Vətənimiz, dövlətçiliyimiz üçün çalışmalı və Ulu Öndər Heydər Əliyev ideologiyasına, bu ideologiyanı və siyasəti uğurla davam etdirən Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşməliyik. İnanırıq ki, çox qısa zamanda, üçrəngli bayrağımız Qarabağımızda dalğalanacaq" deyə çıxışçılar vurğulayıblar.

Tədbirin sonunda məktəbin şagirdləri vətənpərvərlik ruhunda ədəbi-bədii kompozisiyalarla çıxış edərək, tədbirə əlavə ruh yüksəkliyi veriblər.

***Rövşən RƏSULOV***

# "Oyan" hərəkatı nədən ayıldı?

## *Yaxud qrantlar itirildikdən sonra, əsl həqiqətlər və etiraflar üzə çıxır*

***Uzun illərdir dağıdıcı müxalifət kuluarlarında var-gəl edən təşkilatlardan biri də "Oyan" hərəkatıdır. Ümumiyyətlə, istər "Oyan", istər "NİDA", istərsədə "Dalğa" və s. bu kimi hərəkatların məqsədləri "siyasi mübarizə" adı altında radikal "liderlərin" fəaliyyətlərinə dəstək göstərmək, bu vasitə ilə qrantlar qazanıb, maliyyə imkanlarını artırmaqdır ki, son zamanlar bu istiqamətdə siyasi müxalifət partiyaları ilə bənzər hərəkatların arasında dərin uçurumlar yaranıb.***

### Müxalifətyönlü hərəkatlar "liderlərdən" imtina edirlər - səbəbləri var?

Bu arada, "Meydan tv"-yə canlı yayım vasitəsi ilə qatılan "Oyan" hərəkatının təmsilçisi Nahid Cəfərov müsahibəsi əsnasında AXCP, Müsavat, "REAL" partiyalarının rəhbərliklərini sərt şəkildə ittiham edib. Maraqlıdır ki, dünənə qədər onları tərifləyən, "müxalifətin mübariz liderləri" adlandıran N.Cəfərov bu dəfə tamamilə fərqli mövqedən çıxış edib. Bu isə, həm də bir gerçəkliyi isbatlayır ki, artıq müxalifətyönlü hərəkatlar özləri siyasi müxalifətçiliyi, hətta "liderliyi" ələ almağa, bu vasitəylə kəsilmiş qrantlarını bərpa etməyə cəhdlər göstərirlər.

### Nahid Cəfərov: "Yeni hakimiyyətin son islahatlarının arxasında nə 19 yanvar mitinqi dayanır, nə də "REAL"-ın imzatoplama kampaniyası"

Sözügedən müsahibəsində mitinq məsələsinə toxunan N.Cəfərov bildirib ki, mitinqlər heç də siyasi uğur qazanmaq üçün çıxış yolu deyil. Çünki bu günə qədər keçirilmiş mitinqlərin heç birində "liderlərin" verdiyi vədlər özünü doğrultmayıb. O cümlədən, AXCP sədri Əli Kərimlinin hakimiyyətin apardığı inqilabi islahatları keçirdiyi mitinqinin "nəticəsi" olaraq, həm də həyasızcasına ələqələndirməsini doğru hesab etməyən N.Cəfərov, İlqar Məmmədovun sədri olduğu "REAL" partiyasının da imzatoplama aksiyasının baş verən son proseslərə heç bir aidiyyatı olmadığını qeyd edib. "Oyan" hərəkatının təmsilçisi bu amilə toxunaraq deyib: " Mitinq təşkil edib insanları xəyal qırıqlığına uğratmaq siyasi proseslərə çox ciddi zərər vurur. Yeni hakimiyyətin son islahatlarının arxasında nə 19 yanvar mitinqi dayanır, nə də "REAL"-ın imzatoplama kampaniyası".



### Daha bir səbəb - müxalifətin heç vaxt proqram və konsepsiyası olmayıb!

Eləcə də, AXCP sədri Ə.Kərimlinin işinin yalnız danışmaq olduğunu deyən N.Cəfərov bildirib ki, hakimiyyəti tənqid etmək çıxış yolu, müxalifətçilik deyil. Yəni sağlam müxalifət normal, sivil qaydalara uyğun hərəkət etməli, proqram və konsepsiyalarını təqdim etməlidir ki, hazırkı "liderlər" bu istiqamətdə, ümumiyyətlə, heç bir addım ata bilmirlər: "Müxalifət xalq üçün nə yaxşıdır, onu konsepsiya şəklində təqdim etməlidir. Bu günə qədər Azərbaycan müxalifəti bunu edə bilməyib.

"REAL"-ın ideyası və mövqeyi də qeyri-müəyyəndir. Bu partiyanın təklif etdiyi çıxış yolları, əslində, ağrıkəsicidir və problemi kökündən həll edə bilməz".

Göründüyü kimi, "Oyan" hərəkatının təmsilçisi belə qənaəti ilə, əslində, hazırkı dövrə qədər aldadıldıqlarını, "liderlərin" mövqelərinin yalnız şəxsi mənfəətə yönəldiyini deyir və sözün əsl mənasında, təmsil olunduğu hərəkatın "yuxudan ayıldığını" etiraf edir.

Əsas məqam budur ki, əsasən, müxalifətçi baxışları olan insanların yığışdığı bu hərəkat nə Ə.Kərimlini, nə İ.Məmmədovu, nə A.Hacılını, nə İ.Qəmbəri, nə R.Quliyevi nə də ki, digərlərini özlərinə "lider" hesab etmədiyini açıq-aydın vurğulayır.

### Əli Kərimli dindən manipulyasiya kimi istifadə edir

Özü də, bu "liderlərin" gələcəyə baxışlarının olmadığını da deyən N.Cəfərov sonda növbəti diqqətçəkici nüansa toxunur. Bu isə, AXCP sədri Ə.Kərimlinin radikal dindarların "lideri" hesab edilən, Nardaran hadisələrinin əsas baiskarı olan Taleh Bağırzadə ilə manipulyasiya cəhdidir. "Klassik müxalifətin rəhbərlərinin gələcəklə bağlı baxışları olmadığı üçün biz onları lider hesab edə bilmərik, onlar partiya sədrləridir" - deyən N.Cəfərov Ə.Kərimlinin T. Bagırovla bağlı planlarını nəzərdə tutaraq, qeyd edib ki, dindən siyasi manipulyasiya vasitəsi kimi isitfadə etmək yolverilməzdir.

Beləliklə, fakt ortadadır. Fakt isə budur ki, artıq "Oyan" hərəkatı kimi yaxınlarda digər müxalifətyönlü hərəkat və qurumların da bənzər fikirlər səsləndirəcəkləri gün elə də uzaqda deyil. Yəni artıq radikal müxalifətə yandaşlıq edənlərin əksər çoxluğu həqiqəti dərk etməyə başlayıblar.

***Rövşən RƏSULOV***

# Mövsümi aviareyslər Azərbaycanla Səudiyyə Ərəbistanı arasında turizmin inkişafını daha da sürətləndirəcək



Mövsümi aviareyslərin açılması Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında turizmin inkişafını daha da sürətləndirəcək. AZƏRTAC xəbər verir ki, bu barədə Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun rəhbəri İbrahim bin Əbdülrəhman əl-Ömər jurnalistlərə müsahibəsində deyib. O qeyd edib ki, Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında Müştərək Komissiyanın fəaliyyəti olduqca səmərəlidir: "Birgə fəaliyyət iki ölkə arasındakı ticarət dövriyyəsinin artmasına və investisiya əlaqələrinin genişləndirilməsinə öz töhfəsini verəcək. Ölkələr arasındakı turizm əlaqələri də getdikcə inkişaf edir. Hava əlaqələrinin qurulması, mövsümi aviareyslərin açılması turizmin inkişafını daha da sürətləndirəcək. Bu sahədə ölkələrimiz arasında uğurlu əməkdaşlıq mövcuddur".

# Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır

*İlham Əliyev: “Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilibdir, o cümlədən, söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı”*

***Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycan regionun siyasi, iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq, beynəlxalq münasibətlər sistemində layiqli yerini tutub. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməyib, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırıb, rəqabət qabiliyyətini yüksəldib. Dünyada informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirir, Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutur. Qloballaşma dövründə cəmiyyətin inkişafına ciddi təsir göstərən, dünyada demokratiya və informasiya azadlığının mühüm vasitəsi hesab edilən və dördüncü hakimiyyət kimi qəbul edilən kütləvi informasiya vasitələri ictimai fikrin formalaşdırılmasında mühüm rol oynayır.***



Azərbaycan mətbuatı mürəkkəb, lakin şərəfli inkişaf yolu keçərək, bütün zamanlarda xalqımızın şanlı tarixinin güzgüsü olub və bu gün də belədir. Bu ənənə yeni çalarla yaşayır və davam etdirilir. Respublikamızın ictimai-siyasi, sosial-iqtisadi həyatında demokratik dəyərlər daha geniş şəkildə bərqərar olub, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqları möhkəmlənib və Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atıb. Ölkəmizdə söz və mətbuat azadlığının təmin olunması istiqamətində bir sıra uğurlu layihələr həyata keçirilir.

**“BÜTÖVLÜKDƏ, SÖZ VƏ İNFORMASİYA AZADLIĞI HƏR BİR ÖLKƏ ÜÇÜN, ÖLKƏNİN İNKİŞAFI ÜÇÜN ƏN VACİB OLAN MƏSƏLƏLƏRDƏN BİRİDİR”**

Təbii ki, Azərbaycanda söz azadlığının bərqərar olunması və onun əsas daşıyıcısı olan müstəqil mətbuatın yaradılması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq, KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində, gerçəkləşdi. Ulu Öndərin KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyəti üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlər milli mətbuatımızın tarixinin mühüm faktlarıdır. 1995-ci ildə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyasında ölkə vətəndaşlarının təhlükəsiz yaşamaq, söz, fikir və vicdan azadlığı təsbit edildi. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən “İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı” isə vətəndaşların konstitusiyada əksini tapmış söz, mətbuat və fikir azadlıqlarının təminatına əlverişli imkanlar açdı. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli “Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında” Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman KİV-lərin sürətli inkişafına ciddi təkan verdi.

Respublikamızın ictimai-siyasi və sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş şəkildə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi sürətləndikcə, Azərbaycan dövləti söz və mətbuat azadlıqlarının qanunvericilik bazasının demokratikləşdirilməsi istiqamətində yeni-yeni addımlar atır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Söz və mətbuat azadlığını yüksək qiymətləndirən ölkə Prezidenti çıxışlarının birində “Bütövlükdə, söz və informasiya azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üçün ən vacib olan məsələlərdən biridir” - deyərək, söz və informasiya azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulmasının Azərbaycanda çox vacib olan məsələlər olduğunu qeyd edib: “Mən hesab edirəm ki, bu sahədə ölkəmiz çox böyük və uğurlu yol keçmişdir”. Müasir dövrümüzdə söz və mətbuat azadlığı cəmiyyətdə demokratiyanın meyarı və ölçüsü rolunu oynayır.

**KİVDF - AZƏRBAYCANIN UĞURLU MEDİA MODELİ**

Dövlət başçısı İlham Əliyevin səyi ilə qəzet-jurnalların maliyyə-təsərrüfat fəaliyyəti üçün əlverişli şərait yaradılıb, onların borcları ləğv edilib. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində “Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında”, “Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında” sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında”, eləcə də, “Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında” sərəncamları isə təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli “Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında” Sərəncamı da, məhz Konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Fondun əsas vəzifəsi söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi üçün Konsepsiyada nəzərdə tutulmuş müddəaların həyata keçirilməsini, habelə, KİV-lərin proqram, layihə və digər tədbirlərini maliyyələşdirməkdir ki, ötən 10 ildə nəhəng uğurlara və nailiyyətlərə imzalar atıldı.

KİVDF-nin fəaliyyətinin 10 ilində atılan hər bir addım, bütövlükdə, mətbuat təmsilçilərinin fəaliyyətlərinə çoxsaylı bəhrələr verdi. İlk növbədə, bu qurumdan gözləntilər müxtəlif layihələrin həyata keçirilməsi ilə reallığa çevrildi. Jurnalistlərin mənzil probleminin həlli üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan maliyyə vəsaitlərinin ayrılması da mətbuata yüksək diqqət və qayğının bariz nümunəsidir. Belə ki, 2010-cu ildə ölkə jurnalistlərinin sosial müdafiəsinin möhkəmləndirilməsi, mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış binasının tikilməsi məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna, ilkin olaraq, 5 milyon manat vəsait ayrıldı. Həmin vəsait hesabına jurnalistlər üçün 156 mənzildən ibarət 17 mərtəbəli bina inşa olunaraq, media nümayəndələrinə verildi. Daha sonra bu qayğı və diqqətin nümunəsi olaraq, dövlət tərəfindən ikinci bina tikilərək, 255 jurnalistə mənzillər verildi. Bu gün isə jurnalistlərə veriləcək üçüncü binanın tikintisi davam edir.

Azərbaycan dünyada yeganə ölkədir ki, kütləvi informasiya vasitələri nümayəndələri üçün dövlət vəsaiti hesabına yaşayış binaları inşa olunur və onlara verilir. Bu, bir daha sübut edir ki, ölkəmizdə KİV nümayəndələrinin yüksək səviyyədə fəaliyyət göstərmələri, azad mətbuatın təmin edilməsi ilə yanaşı, dövlətimiz jurnalistlərin mənzil-məişət məsələlərinin həllinə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşır.

Göründüyü kimi, Azərbaycan dövləti azad söz, azad mətbuat problemlərini, tam mənada, həll etməyi qarşıya məqsəd qoyub və bu istiqamətdə zəruri addımlar atılır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən, bütün sahələrdə olduğu kimi, milli mətbuat da diqqətdə saxlanılır və ona həssaslıqla yanaşılır. Bütün bunlar Azərbaycan Prezidentinin KİV-ə, jurnalist peşəsinə və əməyinə verdiyi yüksək qiymətin göstəriciləridir.

Təbii ki, respublikamızın tarixi inkişafında əldə olunmuş yüksək nailiyyətlər milli mediamız qarşısında da yeni vəzifələr qoyur. Bu gün belə diqqət və qayğı ilə əhatə olunan Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsində, demokratik özünüdərkin, siyasi mədəniyyətin inkişafında, milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunub-saxlanması və təbliğində mühüm rol oynamalıdır. Azərbaycan jurnalistikası obyektivlik, qərəzsizlik və vətənpərvərlik prinsiplərinə əməl etməlidir. Hər bir mətbuat işçisi istənilən vəziyyətdə məsuliyyət hissini unutmamalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu gün ölkəmizin artan imkanları KİV-lərin, o cümlədən, milli mətbuatımızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır:”Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır”.

Bu gün müharibə şəraitində yaşayan, ərazisinin 20 faizinin hələ də işğal altında olan bir dövlətdə mətbuat işçiləri daha böyük məsuliyyətlə çalışmalıdırlar. Müasir dövrdə ölkə mediasının üzərinə mühüm vəzifələr düşür. İlk növbədə, mətbuatda peşəkarlıq əsas normalardan birinə çevrilməli, KİV-də milli maraqların qorunması hər bir jurnalist üçün vacib mənəvi məsələ olmalıdır.

Ölkənin taleyüklü məsələlərinə münasibətdə mətbuat nümayəndələrindən əsl vətəndaş mövqeyi, milli təəssübkeşlik nümunəsi tələb edir. Bu qədər dövlət qayğısı ilə əhatə olunan mətbuatımız zamanın meyarlarını və tələblərini hər zaman diqqətdə saxlamalıdır. Xarici qüvvələrə havadarlıq edən, ölkədəki sabitliyi, əmin-amanlığı pozmağa cəhd edən “insanların” maraqlarını üzə çıxarıb, kimliyini cəmiyyətə təqdim etmək mətbuatımızın bu gün qarşısında duran məsələlərdəndir.

***ZÜMRÜD BAYRAMOVA***
***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün verilir***

# Ermənistanın doğrulmayan ümidləri



***Nikol Paşinyanın İran səfərinin uğurlu olması barədə fikir formalaşdırmağa çalışan erməni mətbuatının dəridən-qabıqdan çıxması təəccüb doğurmaya bilməz. Bu vaxta qədər İranı sərt şəkildə tənqid edən erməni mətbuatının birdən-birə tam tərsinə mövqe tutması, sözsüz ki, paradoks deməkdir. Ola bilsin, erməni xisləti üçün belə parodoksal təzahürlər, mövqe dəyişmələri adi hal hesab olunur. Amma bütün dünya ictimaiyyəti şahidi oldu ki, ermənilərin öz mövqelərini bir anda dəyişmələri özləri üçün çox normal qəbul olunur və bu dəyişkənlik özünü erməni mətbuatının kursunu dəyişməsi ilə isbatlayıb.***

Cəmi bir il bundan əvvəl, erməni mətbuatı ölkədə mövcud acınacaqlı durumda İranı günahkar kimi qələmə verirdi. Hətta 2017-ci ildə İran prezidentinin İrəvana səfərini şərh edən ermənilər bütün iqtisadi problerin, düşdükləri böhranın günahkarı kimi İranı görürdülər. Ermənistana məxsus az qala bütün saytlar Həsən Ruhanini hədəf seçmişdilər və İran prezidentinin qondarma soyqırımı abidəsini ziyarət etməməsini də həzm edə bilmirdilər. Məhz bu səbəbdən də, bir çox mətbu orqanlar, məsələn, “News arm”, “Armenia Report” kimi saytlar İran prezidentinin səfərinin Ermənistan üçün heç bir iqtisadi faydasının olmayacağını gündəmdə saxlayırdılar. İndi qəflətən nə dəyişdi, Paşinyan yenə öz sehirli çubuğunu necə fırlatdı ki, İran Ermənistan üçün çox faydalı bir ölkəyə çevrildi və erməni cəmiyyətinin gözləntiləri, dəm vurduqları fayda hansı əsasa söykənə bilər?

## Təcrid olunmuş vəziyyətdə olan Ermənistanın təkcə İrandan deyil, hansısa ölkədən faydalı əməkdaşlıq umması da mənasızdır

İran prezidentinin Ermənistana rəsmi səfərinin faydasız olduğu təkzibedilməz faktdır. İran istədə də belə Ermənistana faydalı ola bilməz və bu məsələdə erməni mətbuatının İranı hədəfə alması işğalçı dövlətin apardığı siyasət qədər gülüncdür. Yəni Ermənistana faydalı ola bilməməkdə İran heç bir halda günahkar deyil. Çünki işğalçılıq siyasəti apararaq özünü təcrid olunmuş, marginallaşmış vəziyyətə elə Ermənistanın özü salıb və bu vəziyyətdə hansısa faydalı əməkdaşlıqdan, hansısa faydalı əlaqələrdən dəm vurmaq tamamilə yersizdir. Hətta belə təcrid olunmuş vəziyyətdə təkcə İrandan deyil, hansısa qonşu ölkədən, yaxud hansısa fövqəldövlətdən belə faydalı əməkdaşlıq ummaq da mənasızdır.

Maraqlıdır, erməni cəmiyyəti də faydalı əməkdaşlığın mümkünsüzlüyü barədə həqiqətləri çox yaxşı başa düşdüyü halda, Paşinyanın əlində olan erməni mətbuatı İranla faydalı əməkdaşlıq barədə cəmiyyətə çox fərqli bir mənzərə sırımaq fikrindədir. İrandan Ermənistana dəmir yolu çəkiləcəyinə cəmiyyəti inandırmaq cəhdi yenə də daxili auditoriyaya hesablanıb. Əslində, Paşinyan küçə nümayişlərində əsassız vədlər, populist çıxışlar verməyə çox öyrənəli olub. Daha dəqiq desək, səriştəsiz və idarəetmə qabiliyyəti olmayan bir rəhbərin bundan başqa yolu da yoxdur, bunu onun özü də yaxşı bilir ki, hakimiyyət kürsüsünü elə keçirdiyi andan yalnız əsassız vədlər verir və erməni cəmiyyətini boş yerə ümidləndirməyə çalışır.

Dəmir yolu çəkiləcəyi barədə Ermənistanda boş söz-söhbət, ilk dəfə deyil ki, bunun reallaşmasına erməni cəmiyyətində kiminsə zərrə qədər ümidi olsun. 2008-ci ildə Ermənistanın o dövrdəki prezidenti Serj Sarkisyan da bəyan etmişdi ki, “iki ölkə arasında dəmir yolunun inşası bu il başlayacaq”. Amma nə dəmir yolunun inşasına başlanıldı, nə də bu barədə bir irəliləyişin şahidi olan oldu. Bir sözlə, hələ Sarkisyanın dövründə, daha dəqiq desək, 2008-ci ildə də bu məsələ dövriyyəyə buraxılmışdısa, və üstündən 10 il keçməsinə baxmayaraq, hələ də reallaşmayıbsa, Paşinyanın dəmir yolları barədə yalan vədlərinə kim inanar?

## İrandan Ermənistana dəmir yolunun çəkilməsi səmərəsiz və perspektivsiz işdir

Əslində, vəziyyət heç erməni cəmiyyətində dövriyyəyə buraxılan kimi də deyil və Ermənistan dəmir yolları ilə bağlı qərar verə də bilmir. Çünki Ermənistanın dəmir yolları Rusiyaya satılıb və bu barədə qərarı artıq İrəvan yox, Moskva verir. Deməli, bu vaxta qədər dəmir yolları barədə deyilənlər, elə indi də dövriyyəyə buraxılan vədlər uydurmalardan başqa, bir şey deyil. Göründüyü kimi, İranla dəmir yolları məsələsinin reallaşa bilməməsi, heç də təsadüfi olmayıb və 10 il bundan qabaq ortaya atılan, hələ də reallaşmayan vədin Ermənistanın iradəsindən asılı olmaması təsdiq edir ki, hazırkı hakimiyyətin də verdiyi vədlər, İranla faydalı əməkdaşlıq barədə iddialar yalnız cəfəngiyatdır.

Məsələ burasındadır ki, Ermənistanın dəmir yollarını alan Rusiya tərəfi də işğalçı ölkənin dəmir yolları ilə əlaqədar vəziyyəti təhlil edir və ona öz prizmasından yanaşır. Daha dəqiq desək, ruslar ermənilər üçün belə bir perspektiv görmürlər və bu səbəbdən də, dəmir yolları barədə heç bir fikir belə yoxdur. Bir vaxtlar Rusiya “Dəmir Yolları” şirkətinin prezidenti olan Vladimir Yakunin də bu barədə bildirib ki, “İrandan Ermənistana dəmir yolunun çəkilməsi səmərəsiz və perspektivsiz işdir”.

Ermənistan Rusiya ilə ümumi sərhədə də malik deyil və onun dənizlərə çıxışı belə yoxdur. Rusiyanın Ermənistan barədə nə kimi marağı ola bilər? Rusiyanın marağı daha səmərəli olan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinədir. Rusların diqqəti, məhz bu səbəbdən də, Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun çəkilməsinə yönəldilib. Rusiya tərəfi ona görə bu layihələrə maraqlıdır ki, bu yol Azərbaycan dəmir yolları vasitəsilə Rusiyaya, oradan isə Avropaya uzanacaq. Erməni baş nazirinin İrana, yaxud hansısa ölkəyə səfəri Rusiyanı öz mövqeyindən döndərə bilməz. Bu isə, öz növbəsində, onu deməyə əsas verir ki, ermənilərin bundan sonra da dəmir yolları ilə bağlı arzuları, xülyaları elə arzu və xülya olaraq da qalacaq. Bir sözlə, İran səfəri ilə əlaqədar ermənilər hansı faydalı əməkdaşlıqdan, hansı faydalardan danışırlar, heç özləri də bilmirlər.

## İran tərəfinin Ermənistana maraq göstərəcəyi heç cür ağlasığan deyil və faydalı əməkdaşlıqdan söhbət gedə bilməz

Ermənistanla dəmir yolu inşasına İran tərəfinin maraqlı olması da mümkünsüzdür. Yəni dəmir yolunun çəkilişi iqtisadi baxımdan da, İran üçün əlverişsizdir. Hansı maraq ola bilər dəmir yolunun inşasında? Ermənistanın ixrac və idxal potensialının hansı səviyyədə olduğu bəllidir. Ermənistan İran malları üçün bazar hesab oluna bilərmi? Səfalət içərisində, iqtisadiyyatı ölü olan, alıcılıq qabiliyyəti yox dərəcəsində olan bir ölkə İran üçün hansı marağı kəsb edə bilər? Ermənilər İranla ticarət əlaqələrinə hansı maddi imkanla ümid edə bilərlər? Yaxud belə imkansız bir ölkəyə, özü də işğalçı, qeyri-stabil ölkəyə maraq göstərilməsi mümkündür ki, ermənilər faydalı əməkdaşlıq, fayda deyə aləmə car çəkmək kimi arzuya düşüblər?

Statistik göstəricilərə nəzər salsaq, görərik ki, Azərbaycan İrandan ötən ilin 9 ayı ərzində 502 milyon 128 min 355 dollar həcmində məhsul alıb. Bu göstəricilərlə ölkəmiz İrandan məhsul idxal edən ölkələr arasında ikinci yerdədir. Amma hazırda faydalı əməkdaşlıq deyə səs-küy salan Ermənistan beşinci yerdədir və işğalçı ölkənin İrandan idxal həcmi cəmisi 160 milyon dollar təşkil edir. Belə olan halda, İranın Ermənistana deyil, Azərbaycana marağını başa düşmək də çətin deyil. Yəni İran tərəfinin Azərbaycana yox, Ermənistana maraq göstərəcəyi heç cür ağlasığan deyil və hansı faydalı əməkdaşlıqdan dəm vurduqlarını ermənilər özləri belə anlaya bilmirlər.

Digər tərəfdən, Ermənistan İrandan idxal həcminə görə əvvəlki illərdə ikinci yerdə olduğu halda, indi beşinci yerdədir. Maraqlıdır, belə olan halda, nəyə görə İran bu ölkə ilə əlaqələrə maraq göstərməlidir? İran tərəfi də çox yaxşı başa düşür ki, Ermənistan iqtisadiyyatı dərin böhran içindədir. Əhalisi səfalətdə yaşayır və deməli, alıcılıq qabiliyyəti də yox dərəcəsindədir. Bir sözlə, heç bir məhsul ixracatçısı olmayan Ermənistan İranla ticarət əlaələri üçün də maraqsızdır.

## İqtisadi və siyasi dividendlər qazanmaq niyyətində olan və İrana üz tutan Paşinyanın ümidləri doğrulmadı

İran böyük qaz potensialına malik bir ölkədir. Elə buna görə də, Ermənistan kimi kiçik bir ölkəyə deyil, köhnə qitəyə, Avropaya qaz ixrac etməyi hədəfləyir. Avropa ölkələri də İrandan qaz almaq niyyətindədirlər və artıq Avropanın bir sıra şirkətləri ilə bu barədə danışıqlar da aparılıb. İndi Amerikanın sanksiyalarına belə məhəl qoymayan Avropa qazı Rusiyadan, Azərbaycandan və İrandan almağı hədəflədiyi halda, Ermənistan nəyə ümid edə bilər? İşğalçı ölkənin nə qazı, nə də hansısa bir enerji ehtiyatı olmadığı halda ümidi ona qalır ki, İran qazı Avropaya nəql olunarkən, Ermənistan ərazisindən keçsin. Məhz buna görə də, iqtisadi və siyasi dividendlər qazanmaq niyyətində olan Paşinyanın İrana üz tutması aydın məsələdir. Amma heç inandırıcı deyil. Çünki qonşu dövlətə üz tutan işğalçı dövlətin baş nazirinin ümidləri doğrula bilməz. Heç doğrulmadı da.

Məlumdur ki, ölkəmiz İran kimi neft ixrac edən ölkədir və Azərbaycan neftinin, eləcə də, qazının Avropaya daşınmasında Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri əhəmiyyətli rol oynayır. TAP qaz kəməri ilə də Azərbaycan Avropaya böyük həcmdə qaz ixrac edəcək. Maraqlıdır, Azərbaycan İrana neft və qazını Avropaya ixrac etməsi üçün öz infrastrukturundan istifadəni təklif edirsə, niyə İran tərəfi qazın Avropaya nəqli üçün min kilometrlərlə kəmər çəkməlidir? Axı bu iqtisadi cəhətdən də sərfəli deyil və Ermənistan, belə olan halda, nəyə ümid edə bilər? Digər tərəfdən, İranın öz qazını siyasi kataklizmlər və silahlı münaqişələr olan bir ərazidən keçirəcəyi də ağlasığan deyil axı.

Əgər ermənilər İranın Gürcüstana qaz ixracına ümid edirlərsə, yenə də yanılırlar. Çünki Azərbaycandan qaz ixrac etmək Gürcüstan üçün İrandan qaz almaqdan daha ucuz başa gəlir. Rusiyanın da buna imkan verəcəyi heç cür anlaşılan deyil və Rusiya Ermənistanın qaz bazarını əlindən verməyəcəyi gün kimi aydındır. Paşinyanın belə bir vəziyyətdə İrana səfər etməsi də, utanmadan bu barədə erməni mətbuatının da faydalı əməkdaşlıq deyə səs-küy salması da, məhz bu baxımdan çox gülünc təsir bağışlayır.

Ümumiyyətlə, Ermənistan tərəfi dərk etmək məcburiyyətindədir ki, bu işğalçı ölkə öz işğalçılıq siyasəti səbəbindən, nəinki faydalı əməkdaşlıqlardan, hətta hər cür imkandan da məhrum olub. Bu gün Azərbaycana məxsus əraziləri zəbt edən və ərazi iddiasında olan işğalçılar özlərini, öz ölkələrini çətin və çıxılmaz duruma salıblar. Çünki məhz işğalçılıq siyasəti nəticəsində, Ermənistan küncə qısılmış, marginallaşmış bir duruma düşüb. Heç bir regional və qlobal layihədə iştirak edə bilməməsi, dünya dövlətləri bir tərəfə, qonşu ölkələrlə belə əlqələr, özlərinin dediyi faydalı əməkdaşlıqlar qura bilməməsi də, bu səbəbdəndir. Nə qədər ki, işğalçı dövlət beləcə işğalçılıq siyasətini davam etdirəcək, Ermənistanın doğrulmayan ümidləri bir-birini əvəz edəcək.

**İNAM HACIYEV**

# Bulanıq suda balıq tutmaq istəyən iblis xislətlilər

*Və yaxud sifarişlə çalışan "siyasi mühacir"lərin qərəzli çağırışları*

***Azərbaycanın müstəqil daxili və xarici siyasəti, yüksək beynəlxalq imici, dünyada baş verən hadisələr və davam etməkdə olan proseslərə öz münasibəti, müxtəlif qüvvələrin təsir imkanlarına qarşı güclü immuniteti, milli və dövlətçilik maraqlarını hər şeydən üstün tutması bəzi xarici dairələri, bunu istəməyən qüvvələri ciddi narahat edib.***

Ancaq atalarımızın dediyi kimi: sirkə nə qədər tünd olsa, öz qabını çatladar. Bu gün sifarişlə çalışan dağıdıcı qüvvələr öz qərəzli planlarını reallaşdıra bilməyib, bundan sonra da çirkin niyyətlərinə nail ola bilməyəcəklər. Çünki Azərbaycanda güclü xalq - iqtidar birliyi var və dəfələrlə bu birlik özünü göstərib və həmin qüvvələrin də Azərbaycanda suyu bulandırmaq cəhdlərinin perspektivi yoxdur. Odur ki, bulanıq suda balıq tutmaq istəyənlər bilməlidi ki, Azərbaycan vətəndaşını öz xəbis niyyətinin icraçısına çevirə bilməyəcəklər. Çünki onların əsl mahiyyəti alət olmaqdır. Alətə çevrilən Əli Kərimli, Emin Milli, Leyla Yunus, Xədicə İsmayıl, Natiq Adilov, Orduxan Teymurxan, Elşad Abdullayev, Vidadi İsgəndərli, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Rafael Piriyev və bu kimi zəhərli siyasət rüşeyimləri sosial şəbəkələrdə Azərbaycana qarşı "savaş" açmaq tapşırığını yerinə yetirməklə, erməni sevgilərini nümayiş etdirsələr də, heç nə dəyişməyəcək və necə ki, heç bir şey əldə edə bilmirlər.



## "Siyasi mühacir"lərin əxlaqsız çağırışları

Bəli, "siyasi mühacir"lərin əxlaqsızlığı nə birincidir, nə də sonuncu. Bunu isə, anlamaq lazımdır. "Eşşək palçığa bir dəfə batanda, yolunu dəyişir". Ancaq görünür, bu "siyasi mühacirlərin" gönü qalındır. Bir də bu zəhərli parazitlərdən hansı əxlaqı gözləmək olar? Bu, o əxlaqsız "siyasi mühacirlər"dir ki, aldıqları qrantlara görə, bütün mənəviyyatlarını sataraq, anti-Azərbaycan kampaniyalar təşkil edirlər. Faktlar da bunu təsdiqləyir. Belə ki, Azərbaycanda beynəlxalq əhəmiyyətli tədbirlər və yaxud tarixi və önəmli günlər ərəfəsi xarici ölkələrdə Azərbaycan əleyhinə təbliğata start verilir, mitinqlər keçirmək iddiasına düşürlər. İndi də, ölkəmizdə "Formula 1"-in keçirilməsi ərəfəsi AXCP- "Milli Şura" və Müsavatın mitinq keçirmək "iddiası" yenə də ürəklərində qalacaq. Düşmən dəyirmanına su tökməyi özlərinə şərəfsizlik bilən dağıdıcı müxalifət satqınları - Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, C.Həsənli, R.İbrahimbəyov, G.Hacıbəyli, L.Yunus, X.İsmayıl ... kimi parazitlər 5-10 avro müqabilində beynəlxalq aləmdə Azərbaycan haqqında yanlış rəy formalaşdırmağa çalışsalar da, heç nəyə nail ola bilməyəcəklər və bundan sonra da, bu "iddiaları" ürəklərində qalacaq.

## Qrantlar "siyasi m hacirlər"i üz-üzə qoydu

Ermənipərəst dairələrin qrantları hesabına Azərbaycana qarşı Vətən xainləri - Həbib Müntəzir, Arzu Qeybulla, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Arif Məmmədov, Qənimət Zahid, Natiq Güləhmədoğlu, Fikrət Hüseynov, Ataxan Əbilov, Arif, Leyla və Ramiz Yunus kimi antimilli şərəfsizlər bu gün çirkin əməllərinə görə qrantlar əldə etmək üçün əjdadlarından keçirlər. Onların dirijor çubuğu ilə idarə olunan bu xəyanətkarların özləri boyda zibilləri getdikcə daha çox üzə çıxacaq. Bu gün hansı formadasa mitinq keçirmək istəkləri isə, yenə də iflasa uğrayacaq. Sonda bu satqın xəyanətkarlara böyük dramaturq Mirzə İbrahimovun "Böyük dayaq" filmində deyilən sözü demək kifayətdir : "Sən nə zəhərli ilanmışsan, əəə ?!"

Bəli, bu zəhərli ilanlar isə xalqın qarşısında ən ağır cəzəsini alacaq, özü də bağışlanılmayan cəzalarını!

***Rəfiqə HÜSEYNOVA***





# "Nar" gənclərin uğurlu karyera qurmasına dəstək olur

"Nar" gənclərin uğurlu karyera qurmalarına dəstək olmaqda davam edir. Mobil operator ADA Universitetinin Karyera Mərkəzinin təşəbbüsü ilə ənənəvi olaraq keçirilən "Karyera həftəsi"ndə iştirak edib. Gənclərin karyera qurmalarına dəstək məqsədilə keçirilən sərgidə "Nar" satış, marketinq sahələri üzrə vakant vəzifələrinə sənəd qəbulu təşkil edib. Bundan başqa, mobil operator universitetin tələbə və məzunlarına uğurlu karyera barədə məsləhətlər verib. Şirkət təmsilçiləri ilə birbaşa ünsiyyətdə olan tələbələr karyera imkanlarını dəyərləndirmək, həmçinin bu şirkətlərin təcrübə proqramlarında iştirak barədə məlumat əldə etmək imkanı qazanıblar. Sərgidə "Nar" stendinə maraq böyük olub.

Martın 1-də "İstedadlarla karyera yolları arasında körpü" devizi altında keçirilən karyera yarmarkasında 110-dan artıq dövlət və özəl şirkət iştirak edib. ADA Universitetində 7-ci dəfədir ki, təşkil edilən karyera yarmarkasına 2000-ə yaxın tələbə və məzun qatılıb. Qeyd edək ki, yarmarkanın keçirilməsində məqsəd, gənclərdə məşğulluq bazarı barədə təsəvvür yaratmaq, onlara müxtəlif şirkətlərin insan resursları departamentinin nümayəndələri ilə bilavasitə ünsiyyətdə olub, mövcud iş yerlərinə sənəd vermək imkanı yaratmaqdır.

Qeyd edək ki, gənclərə dəstək məqsədilə "Nar"ın ADA Universiteti ilə geniş əməkdaşlıq əlaqələri mövcuddur. Nəzərdə tutulmuş layihələr arasında yüksək nəticələr göstərən tələbələrə dəstək üçün ADA Universiteti Fondu ilə əməkdaşlıq, startap layihələri dəstəkləyən ADA İnnovasiya Mərkəzi ilə tərəfdaşlıq, ADA-nın tələbə və məzunları üçün karyera və staj imkanlarının təklif edilməsi, Universitetin ixtisasartırma proqramlarına "Nar" operatoru əməkdaşlarının cəlb edilməsi kimi tədbirlər mövcuddur.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Əli Kərimli siyasi riyakarlğın nümunəsinə çevrilib

***20 Yanvar faciəsində olduğu kimi, Xocalı soyqırımı günündə Müsavat başqanı Arif Hacılı, AXCP sədri Əli Kərimli təxribat törətməyə, qarşıdurma yaratmağa cəhd göstərdilər. Sual yaranır, bu cur şəxslər niyə görə, Azərbaycanın ağır günündə xarici sifarişlərə uyğun təxribatlar törətməyə cəhd edirlər? Söhbət etdiyimiz müsahiblərimizin birmənalı mövqeləri ondan ibarət oldu ki, dağıdıcı müxalif partiya liderləri müstəqil olmadıqlarından, anormal tapşırıqların icraçılarına çevrilirlər.***

## Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli: "Müxalifəti pozuculuğa təhrik edən xarici qüvvələr var "



- Faciəli günlərdə dağıdıcı xislətli müxalifət partiya liderləri özlərini anormal aparırlar. Söz yox ki, müxalifət təmsilçilərini pozuculuğa təhrik edən xarici qüvvələr var. Hansı ki, həmin qüvvələr Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salmaq üçün yersiz hərəkətlərə əl atırlar. Ancaq onların nə deməsindən və etməsindən asılı olmayaraq, heç vaxt öz istəklərinə çatmayacaqdır. Yaxşı olardı ki, müxalifət bu cür hərəkətlərə əl atmaqdan əl çəksin. Vəziyyətlərini daha da ağırlaşdırırlar. Onların xalq tərəfindən heç bir dəstəyi yoxdur və bundan sonra da olmayacaqdır. Sadəcə olaraq, müxalifət belə əməlləri ilə gündəmə gəlmək və "mən də varam" demək istəyir. Yəni xalqın dəstəyini görmür deyə bu cür təxribatlara əl atırlar. Bu anormal və mənasız siyasətdir. Təbii olaraq bu siyasətə onları məhv edəcək.

## Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Müxalifət yaramaz əməllərindən imtina etməlidir"



- Millətimizin özünün adət-ənənələri var, həm də, qanun qəbul olunub ki, mərasimləri, xüsusən yas-toy xalq mərasimlərini siyasi proseslərə qatmaq olmaz. Adam ziyarətə gəlibsə, sakitcə ziyarətini edib getməlidir. Yəni bundan siyasi məqsədlər üçün istifadə etmək həm qanunla yasaqdı, həm də ki, bizim milli düşüncəmizə uyğun deyil. Bu, həmişə qınanmış bir haldır. Müxalifət partiyaları nizam-intizamı pozmağı, artıq bir adət halına gətiriblər və bu, birinci dəfə deyil. 20 Yanvar faciəsi günü və Xosalı soyqırımı zamanı Müsavat və AXCP yetkililəri təxribatlar törətdiblər. Bununla da, onlar müstəqil olmadıqlarını, sifariş yerinə yetirdiklərini nümayiş etdirdilər. Müxalifət liderləri bu cür metoddan bir üsul kimi istifadə edirlər. Əslində, yalnışlığa yol verirlər. Bu cür yanlışlığı xalq da görür. Səhv yoldadırlar və bu səhvlərini başa düşməli və bu cür yaramaz əməllərdən imtina etməlidirlər.

***GÜLYANƏ***

# Gürcüstandan gələn avtomobildə siqaret və spirtli içkilər aşkarlanıb





***Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında, idarənin "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan gələn Azərbaycan Respublikası vətəndaşına məxsus "VAZ-21063" markalı avtomobil saxlanılıb və gömrük baxışı keçirilib.***

Dövlət Gömrük Komitəsindən SİA-ya verilən məlumata görə, baxışdan əvvəl şifahi sorğu-sual olunan vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən hər hansı predmetin olmadığını bildirib. Daha sonra avtomobilə gömrük baxışı keçirilib. Baxış zamanı minik maşınının ön oturacaqlarının içərisində və arxa oturacağın altında gizlədilən 3600 ədəd siqaret, habelə ehtiyat təkərin içərisində gizlədilən 11 ədəd "Nemirovskaya" markalı spirtli içkilər aşkarlanıb.

Faktla bağlı araşdırma aparılır.

# İnsan hüquq və azadlıqlarına demokratikləşmə prosesinin təsiri

***Hüquqi dövlət demokratiya, humanizm, insan hüquqları, siyasi və iqtisadi azadlıqlar kimi fundamental ümumbəşəri bir sərvətdir. O, cəmiyyətin bütün seqmentlərinə siyasi həyatda iştirak etməyə bərabər hüquqi imkanlar açır və hər bir fərdin hüquqlarını təmin edir.***

Demokratik dövlətin başlıca əlaməti əsas dövlət orqanlarının seçkili olmasıdır. Yəni hakimiyyətin daşıyıcısı tək-tək şəxslər və yaxud şəxslər qrupu deyil, bütün xalqdır. Demokratik cəmiyyətlərdə hakimiyyətin obyektləri və subyektləri xalqın simasında cəmləşir. Referendum və seçkilər demokratik cəmiyyətin ayrılmaz atributlarıdır. Demokratik dövlətlərin məqsədi cəmiyyətin bütün təbəqələrinin maraqlarını müdafiə etməkdir. Belə dövlətin əsas əlamətləri Azərbaycan Respublikasında milli dövlət quruculuğunda öz əksini tapmışdır. Məlumdur ki, demokratiya daim inkişafda olan bir prosesdir və onun insan həyatının bütün sahələrində hakim olması üçün müəyyən bir tarixi dövrün keçilməsi zəruridir. Bəzən isə, əldə edilmiş demokratik dəyərləri qoruyub-saxlamaq onlara nail olmaqdan daha çətin olur. Demokratik dövlətlərin bütün fəaliyyəti xalqın rifahına xidmət edir, qanunla və ən əvvəl konstitusiya ilə nizamlanır.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə və Əsasnaməsi 1919-cu il iyulun 21-də təsdiq edilən Müəssislər Məclisini çağıra bilməmişdi. Azərbaycan Respublikasının konstitusion quruluşunun tarixi, əsasən, SSRİ-nin tarixi ilə bağlıdır. 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul olunan Azərbaycan SSR-in Birinci Konstitusiyası AXC-nin süqutuna gətirib çıxarmış dövlət çevrilişini qanuniləşdirmişdi. 1927-ci və 1937-ci illərdə qəbul olunan konstitusiyalar isə, əsasən, 1924-cü və 1936-cı illər SSRİ konstitusiyalarına uyğunlaşdırmanı özündə ehtiva edirdi. Azərbaycan SSR-in 1978-ci il aprelin 21-də qəbul edilmiş sonuncu konstitusiyası da 1977-ci il SSRİ Konstitusiyasına uyğunlaşdırılma məqsədi daşıyırdı. Lakin o vaxt Azərbaycan SSR-ə rəhbərlik edən Ümummilli Lider Heydər Əliyevin prinsipial mövqeyi sayəsində bu konstitusiyaya Azərbaycan xalqının milli şüurunun inkişafında mühüm rol oynayan müddəa daxil edilmişdi. Söhbət Azərbaycan dilinin dövlət statusunu müəyyən edən 73-cü maddədən gedir. Xatırladaq ki, belə müddəa SSRİ-nin 15 respublikasının 12-nin konstitusiyasında öz əksini tapmamışdı.

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra da, 1978-ci il Konstitusiyası hüquqi qüvvəsini saxlamışdı. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 4-cü maddəsinə əsasən, 1978-ci il Konstitusiyası öz qüvvəsini yalnız Konstitusiya Aktına zidd olmayan hissələrdə saxlayırdı.

1991-ci il fevralın 9-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə yaradılan Konstitusiya Komissiyası nə iclas keçirdi, nə də Yeni Konstitusiya layihəsi hazırladı. 1993-cü il dekabrın 6-da yaradılan Azərbaycan Respublikasının Yeni Konstitusiya Komissiyası 1994-cü ildə fəaliyyətə başladı.

Müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası layihəsinin təşəbbüskarı olan Prezident Heydər Əliyev bu istiqamətdə işləri sürətləndirmək üçün layihənin baxılmaq üçün xüsusi komissiyaya təqdim edilməsi barədə müvafiq göstəriş verdi. Azərbaycan Respublikası Prezidentinin, bilavasitə, Sədrlik etdiyi komissiyanın tərkibinə məhkəmə, icra və qanunvericilik hakimiyyətlərinin nümayəndələri ilə yanaşı, hüquq, fəlsəfə və siyasi elmlərin nümayəndələri də daxil idi. Daxil olan təklifləri təhlil etmək üçün komissiyanın tərkibində işçi qrup yaradılmışdı. Ümumxalq müzakirələrinin keçirilməsi məqsədilə Konstitusiya layihəsi 1995-ci il oktyabrın 15-də mətbuatda dərc olundu. Daxil olan 2450 təklifin bir qismi Konstitusiya layihəsinin son variantında nəzərə alındı və layihə noyabrın 12-də keçirilən ümumxalq səsverməsində qəbul edildi.

1995-ci il Konstitusiyası Azərbaycan Respublikasının milli dövlət quruculuğunun əsaslarını müəyyən etdi. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, dövlətin demokratik, hüquqi və dünyəvi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil edilməsi kimi təməl prinsiplər təsbit olunmuşdur.

İnsan hüquqlarının mühüm təminatlarından biri də onların toxunulmaz, pozulmaz və ayrılmaz olmasıdır. Bunun üçün hamı qanun və məhkəmə qarşısında bərabər olmalı, heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Həmin məqsədə nail olmaq üçün isə dövlət hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə onun irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq təminat verir.

Əsas hüquqi təminatları və dövlət idarəçilik prinsiplərini müəyyən edən Konstitusiya qəbul olunduqdan sonra demokratikləşmə və hüquq islahatları üçün hüquqi zəmin yaradılır.

Demokratiya və insan hüquqları bir-biri ilə sıx əlaqədədir. Belə ki, demokratiya insan hüquqları, insan hüquqları isə demokratiya olmadan mümkün deyildir. Bu baxımdan, demokratik təsisatların yaradılması insan hüquqlarına riayət etməklə gerçəkləşir.

Azərbaycan Respublikasında demokratikləşmə prosesi iki xüsusiyyəti ilə fərqlənir. Ənənəvi Qərb demokratiyalarından fərqli olaraq, ölkəmizdə demokratikləşmə prosesi dövlətin öz təşəbbüsü ilə başlamış, digər tərəfdən isə bu proses beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla, qısa müddət ərzində, gerçəkləşdirilmişdir. Bunun isə həm müsbət, həm də mənfi cəhətləri vardır. Bir tərəfdən, ölkəmiz başqa dövlətlərin səhvlərini təkrarlamadı, lakin digər tərəfdən, tətbiqi üçün hələ şərait yetişməmiş, cəmiyyətin qəbul etməyə hazır olmadığı bəzi tədbirlərin həyata keçirilməsində beynəlxalq təşkilatların təkid etməsi, bəzi standartların isə ikili xarakter daşıması ölkəmizə münasibətdə ayrı-seçkiliyin yaranmasına gətirib çıxardı. Bütün nüanslara baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə demokratik, dünyəvi və hüquqi dövlət quruculuğuna yönəlmiş hüquq islahatları dönmədən, ardıcıl şəkildə reallaşdırıldı. Hüquq islahatlarının səmərəliliyinə nail olmaq üçün bazar iqtisadiyyatı münasibətlərinə əsaslanan iqtisadi islahatlar da paralel həyata keçirilməyə başladı.

Bundan əlavə, insan hüquq və azadlıqlarının təminatı beynəlxalq standartlara tam uyğun şəkildə həyata keçirildi. İnsan hüquqlarına və azadlıqlarına göstərilən böyük diqqətin təzahürü olaraq, Prezident Heydər Əliyev 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzaladı. Fərman konstitusiyada təsbit olunan insan hüquqlarının təminatının gücləndirilməsi üçün dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etdi. Fərman əsasında iyunun 18-də insan hüquqlarının müdafiəsi sahəsində ilk Dövlət Proqramı qəbul edildi.

Azərbaycan Respublikası dünya dövlətləri birliyinin fəal üzvü olduğunu, insan hüquq və azadlıqlarına böyük diqqət yetirdiyini, bir sıra beynəlxalq müqavilələrin iştirakçısı olmaqla və həmin müqavilələrdən irəli gələn öhdəlikləri dönmədən yerinə yetirməklə təsdiqləyir. Azərbaycan Respublikası müvafiq beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir, onlara məruzələrini təqdim edir və onların tövsiyələrinə diqqətlə yanaşır.

Hüquqi dövlətdə insanların öz baxış, məslək və əqidəsini qanun çərçivəsində müdafiə və təbliğ etmək imkanları təmin edilir. Bu da, siyasi partiyaların, ictimai birliklərin formalaşması və fəaliyyət göstərməsində, siyasi plüralizmdə və mətbuat azadlığında öz ifadəsini tapır.

Azərbaycan Respublikasında fikir, söz və mətbuat azadlığının inkişafına təminat yaratmaq dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Azərbaycan dövləti cəmiyyətin mütərəqqi inkişafının digər demokratik norma və dəyərlərlə yanaşı, söz və mətbuat azadlığının mövcudluğu ilə üzvi şəkildə bağlı olduğunu nəzərə alaraq, ötən dövr ərzində, bu sahədə mühüm tədbirlər görmüşdür. Demokratik dövlətlərin təcrübəsindən istifadə etməklə, söz və mətbuat azadlığının inkişafı üçün zəruri olan qanunvericilik bazası yaradılmışdır. Prezident Heydər Əliyevin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli Fərmanı ilə ölkədə keçmiş hakimiyyətlərin kütləvi informasiya vasitələri üzərində tətbiq etdiyi dövlət senzurası ləğv olunmuşdur. Kütləvi informasiya vasitələrinin qeydiyyatdan keçdiyi Mətbuat və İnformasiya Nazirliyi 2000-ci ildə ləğv edilmiş və bununla da, kütləvi informasiya vasitələrinin qanunvericiliyin tələblərinə uyğun olaraq, demokratik şəkildə təsis edilməsi proseduru yaradılmışdır. Beləliklə, kütləvi informasiya vasitələrinin istifadəsinə və yayılmasına nəzarət edə biləcək dövlət mexanizmi aradan qaldırılmışdır.

Azərbaycan dövlətinin söz, fikir və mətbuat azadlığının inkişafı üçün apardığı siyasətin mahiyyətini ölkənin Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri, insan hüquqları ilə bağlı olan beynəlxalq müqavilələrin əsas prinsiplərini səmərəli şəkildə yerinə yetirmək və cəmiyyətin inkişafının tələblərinə uyğun olaraq, yeni hüquqi-normativ aktlar işləyib-hazırlamaqla onları ictimai praktikada səmərəli şəkildə həyata keçirmək təşkil edir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Heydər Əliyevin rəhbərliyi ilə görülən qanunvericilik və icra tədbirləri nəticəsində siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri haqqında qanunlar beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Azərbaycanda hazırda 54 siyasi partiya, 2487 qeyri-hökumət, o cümlədən, 148 hüquq-müdafiə təşküatı, 66 həmkarlar ittifaqı və 4110 kütləvi informasiya vasitəsi qeydə alınmışdır. Onların hamısı sərbəst fəaliyyət göstərir.

Ölkəmizdə insan hüquqları sahəsində mühüm tədbirlərdən biri də Şərq aləmində, ilk dəfə olaraq, ölüm cəzasının ləğv edilməsidir. Azərbaycan Prezidenti Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1993-cü ildən icrasına moratorium qoyulmuş bu müstəsna cəza növü 1998-ci il 10 fevral tarixli qanunla tamamilə ləğv olunmuşdur. Bununla hər bir insanın təbii və ayrılmaz hüququ olan yaşamaq hüququna əsaslı təminatlar verilərək, insanın həyatdan məhrum edilməsi yolverilməz hesab olunmuşdur.

Prezident Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində, 1995-ci ildən əfv və amnistiya təsisatları bərpa edilmişdir. İndiyə qədər ölkəmizdə əfv barədə 47 Fərman və Sərəncam verilmiş və 5 mindən çox adam əfv edilmişdir, 9 amnistiya aktı 96 mindən çox şəxsə tətbiq edilmiş, o cümlədən, təxminən 25 min məhkum cəzaçəkmə müəssisələrindən azad olunmuşdur.

İnsan hüquqlarının təminatı müvafiq müdafiə mexanizmləri olmadan mümkün deyildir. Azərbaycan Respublikasının Konstitusiyası hər kəsə qanunla qadağan olunmamış üsul və vasitələrlə öz hüquqlarını müdafiə etmək hüququ vermişdir. Bundan əlavə, insan hüquq və azadlıqlarının təmin olunması dövlət siyasətinin həlledici istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilmişdir. Təsadüfi deyil ki, hüquqi dövlətin ayrılmaz atributu kimi insan hüquq və azadlıqlarının qorunması sonradan ölkədə həyata keçiriləcək hüquq islahatlarının əsas prioritetinə çevrilmişdir.

Hüquq islahatlarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə 1996-cı il fevralın 21-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə Hüquq İslahatları Komissiyası yaradıldı. Komissiya ilkin mərhələdə reallaşdırılacaq hüquq islahatlarının prioritetlərini müəyyən edir və Sovet İttifaqından miras qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirir. Azərbaycan Respublikasında aparılan hüquq islahatlarının təməlini ümumbəşəri demokratik prinsiplər, qanunun aliliyi və insan hüquqlarının müdafiəsi kimi fundamental dəyərlər, ədalət mühakiməsi prinsipləri təşkil edir. Eyni zamanda, xalqımızın dövlətçilik tarixi və ənənələri, inkişaf etmiş ölkələrin hüquqi dövlət quruculuğu təcrübəsi nəzərə alınır.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs



## Diqqətli olun: Bu hərəkətləriniz uşaqlarınızı dəhşətə sürükləyir!

Aparılan psixoloji tədqiqatlar nəticəsində müəyyən olub ki, insan həyatında ən ağır travma valideynlərinin onu başqalarının yanında aşağılamasıdır. Belə ki, alimlərin qənaətinə əsasən, beyin hər ağrı-acını sağalda və həzm edə bilər, yaşadığı hər bir hadisə ona təcrübə qazandırır. Amma həqarəti unuda və bağışlaya bilməz. Bu barədə tanınmış psixoloq Anna Kiryanova məlumat verib. "Həqarət onunla fərqlənir ki, bu, cavabsız reaksiyadır. Cəmiyyət adətən cavab qaytara bilməyən gücsüz, dözmək və susmaq məcburiyyətində qalan insanları alçaldır. Sonra isə o insanlar ağlamağa və ya əksinə, axmaqcasına gülümsəməyə, öz-özünə danışmağa başlayır və günlərlə sinəsində ağrı hissi ilə gəzib dolaşır.



"Həyatda hər şey baş verir, oldu keçdi də... Hər kəsin gözü qarşısında alçaltdılar, döymədilər ki... Bir-birimizi alçaltdıq, qorxulu heç nə yoxdur" kimi sözlərlə özünüzə təsəlli verə bilərsiniz. Dəhşətlisi odur ki, aşağılanan insanda daha sonra intihara meyillik və ya zehni pozğunluq meydana gələ bilər. Əgər o insanın psixikası möhkəmdirsə, onda bu qorxu ömür boyu onu tərk etməyəcək. Və şəxs aşağılandığını unutmaq üçün hər şeyi etməyə hazırdır, amma o anlar unudulmur. Çünki həqarət ən güclü və ağrılı psixotravmadır", - deyə psixoloq əlavə edib.

Mütəxəssis hesab edir ki, həqarətlə mübarizə aparmaq üçün yeganə yol isə cavab verməkdir: "Rəhbər, tanışlar, tanımadığınız insanlar sizi aşağılaya və ya iş görüşməsində alçaldıcı suallar verə bilər. Xəstəxanda, mağazada və ya hər hansı qurumda aşağılana və buna dözmək məcburiyyətində qala bilərsiniz.

Həqarətlə mübarizə aparmaq üçün yeganə yol isə cavab verməkdir. Bu insanlardan asılı olsanız da, sakit və adekvat cavab verin. Çünki heç bir pul və münasibət həqarət travmasını kompensasiya etmir, o əbədi olaraq qalır. Ümumiyyətlə, insanlar adətən qarşısındakının ondan yüksəkdə dayandığını bildiyi üçün onu alçaltmaqla özünə olan güvəni və hörməti yüksəltməyə çalışır. Bu, yelləncəyə bənzəyir, biri qalxır, digəri isə aşağı düşür. Bir ayaqla itələmək və mövqeyini dəyişdirmək lazımdır, hər halda başqa yol yoxdur. Aşağılayıcı məktublar almaq iyrəncdir. Təhqirlərə qulaq asmaq qəbuledilməzdir. Cavab verdiyiniz zaman qarşı tərəf sizinlə daha ehtiyatlı davranmağa başlayır, belə olan halda, heç bir təhqir yoxdur, bu hiylədir. Odur ki, uşaqları döymək və təhqir etmək lazım deyil".

## AFFA-nın növbəti hesabat konfransı keçirilib




Martın 4-də Bakıda AFFA-nın növbəti hesabat konfransı keçirilib. Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, AFFA prezidenti Rövnəq Abdullayev, Azərbaycan millisinin baş məşqçisi Nikola Yurçeviç, futbol ictimaiyyətinin nümayəndələri, "Bakı-2019: Ulduzlar Finalı" ilə əlaqədar ölkəmizdə səfərdə olan məşhur veteran futbolçular və digər şəxslər iştirak ediblər.

AFFA-nın prezidenti Rövnəq Abdullayev tədbirdə çıxış edərək ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb. R.Abdullayev Azərbaycan Prezidenti İlham Əliyevin UEFA Avropa Liqasının final matçının ölkəmizdə təşkilinə dair Sərəncamının yüksək səviyyədə təşkilinə zəmin yaratdığını diqqətə çatdıraraq deyib: "Ötən il U-19 millimiz Avropa çempionatının elit raunduna yüksəlib. Həmçinin "Qarabağ" EUFA Avropa Liqasının qrup mərhələsində mübarizə aparıb. Təəssüflər olsun ki, millimiz Millətlər Liqasının pley-off mərhələsinə adlaya bilmədi. Yığmanın baş məşqçi postunda dəyişiklik edildi".

Gənclər və idman naziri Azad Rəhimov Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını deyərək cari ildə ölkəmizin UEFA Avropa Liqasının final oyununa, gələn il isə Avropa çempionatının final mərhələsinin dörd matçına ev sahibliyi edəcəyini bildirib. Qeyd edib ki, bütün bunlar ölkəmizdə futbolun inkişafından xəbər verir. AFFA-nın fəaliyyətini yüksək qiymətləndirən nazir qeyd edib ki, uşaqlar üçün mütəmadi liqalar təşkil olunur.

Sonra AFFA-nın ötənilki fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub. AFFA-nın baş katibi Elxan Məmmədov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, üç gün sonra UEFA Avropa Liqasının final oyununa onlayn bilet satışına start veriləcək. Statistika göstərir ki, həmişə biletlər qısa müddətdə satılır. Buna görə də azarkeşləri fəal olmağa çağırıram. Ötən ilin sonunda UEFA tərəfindən final oyununa 1500 VIP bilet satışa çıxarıldı. Həmin biletlərin qiyməti 890 avro idi. Həmin biletlər iki həftə ərzində satıldı. Azərbaycandan 19 VIP bilet alınıb. FIFA-nın Avropa ölkələri üzrə əlaqələndiricisi Byorn Vassallo ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısını yüksək qiymətləndirib. O, Azərbaycanda futbolun inkişafı istiqamətində görülən tədbirlərin əhəmiyyətindən danışıb. Konfransda AFFA-nın maliyyə hesabatı dinlənilib və müstəqil audit tərəfindən şəffaf dəyərləndirilib. Sonda "Bakı 2019: Ulduzlar Finalı" adlı qarşılaşmadan bəhs edən videoçarx təqdim olunub.

## Atletimiz Avropa çempionatında qızıl medal qazanıb




Azərbaycanlı idmançı Nazim Babayev Şotlandiyanın paytaxtı Qlazqoda keçirilən atletika üzrə 35-ci qış Avropa çempionatında üçtəkanla tullanmada ən yaxşı nəticə göstərərək qızıl medal qazanıb. Azərbaycan Atletika Federasiyasından bildirilib ki, yarışın son günündə N.Babayev dördüncü cəhddə 17,29 metr nəticə göstərərək Avropa çempionu adına layiq görülüb. Atletimiz bu nəticə ilə həm də öz şəxsi rekordunu yeniləyib. Təəssüflər olsun ki, digər idmançımız Zəkiyyə Həsənova martın 2-də 60 metr məsafəyə qaçış yarışında rəqiblərinə məğlub olub. Azərbaycanlı atletlər federasiyasının baş katibi Məhərrəm Sultanzadənin rəhbərliyi ilə mübarizə aparırlar. Qeyd edək ki, bu il 35-ci dəfə təşkil olunan qış Avropa çempionatı ilk dəfə 1970-ci ildə keçirilib. "Qlazqo 2019"da qitənin 50 ölkəsindən 600-dən çox atlet mübarizə aparır. Çempionata martın 3-də yekun vurulacaq.

## Bülent Özerdim: Formula 1 Azərbaycan Qran-Prisi ilə bağlı biletlərin təqribən 60 faizi satılıb



Aprelin 26-28-də dördüncü dəfə keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisini izləmək üçün bu vaxtadək 52 ölkədən azarkeş müraciət edib. AZƏRTAC xəbər verir ki, bu barədə "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) kommersiya şöbəsinin rəhbəri Bülent Özerdim deyib. Onun sözlərinə görə, yarışın biletlərinin artıq 60 faizə qədəri satılıb. Biletlər ən çox Rusiya, Böyük Britaniya, Gürcüstan, Ukrayna, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdən olan azarkeşlər tərəfindən alınıb.

## Nihat Kahveci və Deku Bakıda azarkeşlərlə görüşüblər

UEFA Avropa Liqasının final oyununa hazırlıq kampaniyası çərçivəsində "28 Mall" ticarət mərkəzində Nihat Kahveci və Dekunun imza günü keçirilib. İmza günündə azarkeşlər və qonaqlar futbolçularla yaxından tanış olub, imza alıb, eləcə də onlarla xatirə şəkli çəkdiriblər.

Qeyd edək ki, Nihat Kahveci türkiyəli sabiq peşəkar futbolçudur. "Beşiktaş"ın yetirməsi olan hücumçu İspaniyanın "Villareal" və "Real Sosyedad" kimi klublarında da çıxış edib. Deku kimi tanınan Anderson Luis de Souza isə yarımmüdafiəçi mövqeyində çıxış edən sabiq portuqaliyalı futbolçudur. Deku "Porto", "Barselona", "Çelsi" və "Fluminense" kimi klubların şərəfini qoruyub.

## ELAN

Məmmədov Famil Həsən oğluna fərdi mənzil tikintisi üçün nəzərdə tutulmuş ərazidən torpaq sahəsinin ayrılması ilə bağlı Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kənd Təsərrüfatı Müəssisəsi tərəfindən verilmiş 21 may 2008-ci il 28 №-li əmr itdiyi üçün etibarsız sayılır.

***

Məmmədov Famil Həsən oğluna həyətyanı torpaq sahəsinin ayrılmasıyla bağlı 096 saylı 20 avqust 1999-cu il tarixli Azərbaycan Respublikası Abşeron rayon İcra Hakimiyyəti üzrə sərəncamdan çıxarış etdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Coğrafiya ixtisası üzrə 1802-B qrup tələbəsi Əliyeva Elza Asif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

7 saylı Notariat Kontoru tərəfindən 03.09.2014-cü ildə Hacıyev Sevindik Ziyadxan oğlu və Hüseynov İlqar Ağasadıq oğlu tərəfindən Məmmədov Famil Həsən oğluna verilmiş AR-I 356720 saylı etibarnamə itdiyi üçün etibarsız sayılır.

***

Bakı şəhəri 31 saylı DNK tərəfindən Əliyeva Səkinə Şirəli qızının adına verilmiş JN 29079 saylı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500